MƏHƏMMƏD NƏRİMANOĞLU

# Ağdaban faciələri

# Агдабанской трагедии

# Agdaban tragedy

# Tragedie Agdaban

# ماساة آغ دابان

"ADİLOĞLU"
Bakı - 2010

Az
N 55

Məsləhətçi: Qənbər Şəmşiroğlu

Redaktor: Yusif Hüseyn

N55.Məhəmməd Nərimanoğlu. Ağdaban faciələri. Bakı, «Adiloğlu» nəşriyyatı, 2010, 104 səh.

*Kitabda Kəlbəcər rayonunun Ağdaban kəndinin iki dəfə(1992-ci il 8 aprel, 1993-cü il 26 mart)erməni vandalları tərəfindən vəhşicəsinə odlara qalanması və ağdabanlıların, xüsusən də Dədə Şəmşirin və atası şair Ağdabanlı Qurbanın əlyazmalarının və onların nəsil daşıyıcılarının bir gecənin içərisində diri-diri odlara qalanmasından, ümumiyyətlə, bu kəndin strateji əhəmiyyətindən danışılır. Kitabda həmçinin qəddar erməni quldur dəstələrinin insanlığa qarşı törədiyi vandalizm aktı foto-şəkillər əsasında da göstərilir.*

İSBN 978-9952-25-118-4

N $\frac{4722110018}{121-2010}$ qrifli nəşr

©M.Nərimanoğlu, 2010



# UNUTMAQ OLMAZ!

**«Bu faciəni heç vaxt unutmaq olmaz, facіə bizə nə qədər qəm-qüssə, kədər gətirsə də, bu faciədən hərə özü üçün bir ibrət götürsün. Yaşatmaq lazımdır ki, dünya xalqları bilsin – Azərbaycanın başına nə kimi bəlalar gəlibdir və erməni qəsbkarları nə qədər vəhşidirlər ki, Azərbaycan xalqının başına bu cür bəlalar gətiriblər. Ona görə bunu yaşatmaq lazımdır, unutmaq olmaz, nəsillərdən-nəsillərə ötürmək lazımdır...**

**...Yenə Kəlbəcərin keçmişinə qayıdıram. Onun çox gözəl keçmişi olubdur. Və çox güman edirəm ki, çox gözəl də gələcəyi olacaqdır. Burada çıxışlar bir-birindən fərqli olsa da, hamısında bir fikir eyni idi: işğal edilmiş torpaqlar, o cümlədən Kəlbəcər sülh yolu ilə azad olunmalıdır. Əgər bu mümkün olmasa, – burada bacılarımız da dedi, qardaşlarımız da dedi, – bütün imkanlarımızdan, gücümüzdən istifadə edib, Kəlbəcəri azad edəcəyik, işğal olunmuş torpaqlarımızı azad edəcəyik. Buna heç kəsin şübhəsi olmasın, biz qoymayacağıq ki, torpağımızın bir qarışı da qəsbkarların əlində qalsın! Bir qarışını da qoymayacağıq»!**

*(Ümummilli liderimiz Heydər Əliyevin 1996-cı il aprelin 1-də kəlbəcərli ziyalıların bir qrupu ilə keçirdiyi görüşdəki çıxışından)*

**Kəlbəcər: qısa məlumat**
**Ərazisi** - 1936 kv.km
**Əhalisinin sayı** - 53962 nəfər
**İnzibati mərkəzi** – KƏLBƏCƏR şəhəri

## Kəndləri, şəhər və qəsəbələri

Kəlbəcər rayonu ərazisində bir şəhər, 2 qəsəbə və 128 kənd mövcud olmuşdur. Hazırda həmin yaşayış məntəqələrinin hamısı da Ermənistan tərəfindən 1993-cü il aprelin 2-də işğal olunduğundan, hazırda oranın hansı vəziyyətdə olması barədə ətraflı məlumat yalnız ermənilərə məlumdur. Beynəlxalq təşkilatların, o cümlədən ATƏT-in Minsk qrupu həmsədrlərinin də Kəlbəcərin indiki vəziyyəti barədə məlumatları yoxdur. Ermənistan Silahlı Qüvvələrinin burada hərbi məntəqələrinin yerləşməsi, rayonun və bütün yaşayış məntəqələrinin darmadağın olunması, bütünlüklə təbii sərvətlərinin talan edilməsi barədə xeyli məlumat əldə edilmişdir.

Rayon mərkəzi olan Kəlbəcər şəhəri İstisu sanatoriyasından 25 km şərqdə, Tərtər və ayrım çaylarının arasında, sıldırım qayaların üstündə yerləşir.

Şorbulaq qəsəbəsi isə Kəlbəcər şəhərindən şərqdə, Ağdərə istiqamətində, Bağlıpəyə kəndinin qonşuluğundadır.

Şəhər və kəndlər işğala qədər soial-mədəni inkişaf yolu keçmiş, əhalinin həyat səviyyəsi xeyli yüksəlmişdi. Əhalinin əsas məşğuliyyəti əkinçilik və maldarlıqdan ibarət olmuşdur.





Rayonun ərazisi - 1936 kv.km, əhalisinin sayı - 53962 nəfərdir.

**Kəndləri** - Ağdaban, Abdullauşağı, Ağcakənd, Almalıq, Allıkənd, Alırzalar, Alolar, Aşağı Ayrım, Başlıbel, Bağlıpəyə, Barmaqbinə, Babaşlar, Boyaqlı, Böyürbinə, Bozlu, Bəzirxana, Böyük düz, Bəylik, Comərd, Cəmilli, Qanlıkənd, Baş Qaraçanlı, Orta Qaraçanlı, Aşağı Qaraçanlı, Qasımbinəsi, Qamışlı, Qaragüney, Qılınclı, Quşyuvası, Zar, Zəylik, Zivel, Zülfüqarlı, Çaykənd, Çayqovuşan, Çıraq, Çəpli, Çərəktar, Dalqılınclı, Daşbulaq, Dərəqışlaq, Dəmirçidam, Şaplar, Şurtan, Yanşaq, Yuxarı binə, Yellicə, Mollabayramlı, Milli, Moz Qaraçanlı, Məmmədsəfi, Məmmədușağı, Hacıkənd, Həsənlər, İstibulaq, Nadirxanlı, Narınclar, Sarıdaş, Susuzluq, Seyidlər, Taxtabaşı, Tatlar, Tövlədərəsi, Tirkeşəvənd, Təkəqaya, Təkdam, Əsrik, Mərcimək, Kaha, Kərəmli, Keştək, Kənd yeri, Günəşli, Güneypəyə, Xallanlı, Otaqlı, Otqışlaq, Oruclu, Laçınkənd, Lev, Umudlu, Xoləzək və s. ... cəmi: 128 kənd.

Qədim tariximiz yadelli yazılı mənbələrdə əks olunduğundan, bir çox məqamlarda onun təhrif olunmuş variantları ilə rastlaşmalı oluruq, lakin həqiqəti heç kim, heç zaman tarixin səhifələrindən silmək qüdrətində olmayıb. Antik qaynaqların Azərbaycanın cənub hissəsini Atropatena, şimal hissəsini isə Albaniya kimi təqdim etməsi barədə müfəssəl məlumata malikik. Onun üçün də bu barədə ətraflı şərhə ehtiyac duymuruq.

Lakin məqsədimiz keçmişimizə baxmaq olduğundan, bu günümüzə qədər keçdiyimiz yollara dönmək və həmin tarixin bəzi məqamlarına işıq salmaq yerinə düşərdi.

Kür-Araz mədəniyyətinin son inkişaf mərhələsində artıq Azərbaycanın bütün dağlıq zonalarında (Xoşbulaq kurqanları, İstisu yaylalarındakı yaşayış məskənləri, qayaüstü rəsmlər bunu sübut etmişdir) məskunlaşma başa çatmışdır.

Orta Tunc dövrü Azərbaycanda qədim incəsənətin çiçəklənməsi mərhələsidir. Saxsı qablar üzərində çəkilmiş naxışlar bunu bir daha təsdiq edir. Qobustan (Böyükdaş, Yazılıtəpə), Gəlinqaya və Kəlbəcərin digər ərazilərində (məsələn, Qoçdaş, Sarıyer, Gəlin qayası, Ceyran bulağı və s.) qayaüstü rəsmlərdə heyvanat aləmi, məişət və ov səhnələri, əyləncə və magiya (şamanlıq) təsvir olunmuşdur.





***

...Ərəblərin Qafqaza gəlişindən sonra köhnə dini-etiqadlarını saxlayan albanlar və adərbayqanlar İslam dinini qəbul etdilər. Xristianlığın siyasi təsiri Albaniyada Arsaxın ərazisi ilə məhdudlaşırdı. Arsax xristianları müxtəlif dillərdə, məsələn, türk və İran (fars) dillərində danışırdılar.

Bu gün şovinist havadarlarının köməyi ilə «dünyaya meydan oxuyan» ermənilərin əcdadlarının Qafqazda təşəkkül tapmış millətlərin arasında olmaması bu kimi tarixi faktlarla sübuta yetirilmişdir.

Qarabağ tarixi-etnoqrafik əyalət kimi əvvəlcə Alban dövlətinin tərkibində olmuş, sonra bütün Azərbaycanla birlikdə ərəb xilafətinin təbəliyinə keçmiş, ərəb imperiyasının süqutundan sonra, X əsrdə Salarilər, IX-XI əsrlərdə Sacilər dövlətinin, XI-XII əsrlərdə Şəddadilər, XII-XIII əsrlərdə Atabəy-Eldəgizlər, XIII əsrin ikinci yarısından XIV əsrədək Hülakilər (Elxanilər), XV əsrdə Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tərkibində olmuşdur.

Səfəvilər dövləti Qarabağ tarixi-etnoqrafik əyalətinin ərazisini əhatə edən, mərkəzi Gəncə olmaqla, Qarabağ Bəylərbəyliyini yaratdı. Bəylərbəyliyin şimal sərhəddi Gürcüstanın Samket dağlarına çatırdı. 1736-cı ildə Nadir Şah guya onun əleyhinə çıxmış (bu da ermənilərin bir fitvası idi ki, iki qonşu xanlıq bir-birinə düşmən kəsilsin və ya ağır məqamlarda bir-birinin köməyinə çatmasın.

Bu, ermənilərin tarixən işlətdikləri ən çirkin siyasət olmuşdur və çox təəssüf ki, həmin siyasət bu gün də beynəlxalq səviyyədə yeridilir və beynəlxalq aləmdə bir çox məqamlarda bu siyasətə, hətta dəstək də tapırlar) Gəncə xan sülaləsini Ziyadoğluları cəzalandırmaq üçün Qazax və Borçalı mahalını Qarabağ Bəylərbəyliyindən alıb Gürcüstana verdi. Mənbələrə görə, Şəddadilər dövləti bütün Qarabağ Bəylərbəyliyini əhatə etmişdi. Görünür, həmin dövrlərdə Azərbaycanın dövlət və inzibati əyalət sərhədləri dəyişsə də, özünəməxsus maddi, təsərrüfat və mənəvi mədəniyyəti ilə xarakterizə olunan Qarabağ bir etnoqrafik əyalət kimi öz inkişafını fasiləsiz olaraq davam etdirmişdir.

XVII əsrin sonundan XVIII əsrin ortalarınadək Azərbaycanın feodal dövlətlərə – xanlıqlara parçalanması zamanı Qarabağ Bəylərbəyliyi ərazisində Qarabağ və Gəncə xanlıqları yaranmışdır.

Qarabağ Azərbaycanın müxtəlif dövlətlərinin (xanlıqlarının) tərkibində olarkən dövrün inzibati ərazi bölgüsü çərçivəsində sərhədlərini hərdən, qismən dəyişsə də, özünün ənənəvi təsərrüfatının maddi və mənəvi mədəniyyətlərini yaratmış və inkişaf etdirmişdir.

XVIII əsrin ikinci yarısında müstəqil Qarabağ xanlığı feodal dövlətinin yaranması, onun öz müstəqilliyini qoruması üçün həyata keçirdiyi iqtisadi, siyasi və mədəni tədbirlər Qarabağ tarixi-etnoqrafik əyalətinin sosial-iqtisadi həyatında hərtərəfli yüksəlişə, tərəqqiyə səbəb olmuşdur.





Xanlıq cənub-şərqdən Kür-Araz çayları qovuşağı, cünubdan Araz çayı, qərbdən Qarabağ dağları adlanan Köşbək, Salvartı və Ərikli dağları ilə Göyçə gölünə qədər uzanmış, şimaldan Goran-Kür çayları ilə sərhədlənmişdi.

O zamanlar Qarabağ on yeddi mahala bölünmüşdü: Sisian, Dəmirçi-Aslanlı, Güpara, Bərgüşad, Vahabyurd, Kəbirli, Talış, Cavanşir, Xaçın, Çiləbird, Xırda-para, Dizax, Otuziki, İyirmidörd, Qaraçöplü, Vərənd və Acantürk. On iki mahalın əhalisi bütövlükdə (bir neçə kənddə qarışıq millətlər var idi) azəri türklərdən ibarət idi.[1]

Qarabağın ərazisi Kiçik Qafqaz sıra dağlarından başlayaraq, Kür-Araz çayları arasındakı ərazini əhatə edir, qərbə doğru getdikcə yüksəlir və nəhayət, Murovdağın (Camışdağ zirvəsində 3724 metr dəniz səviyyəsindən yüksəklikdə) zirvəsinədək uzanır.

Qarabağın taleyinə yazılmış tarixi səhifələdikcə oradakı qaranlıq məqamların üstünə işıq düşür. Elə burada da çalışmaq istədik ki, dəfələrlə yadellilərin ağır maddi və mənəvi zərbəsinə məruz qalmış Qarabağımıza qara əllərin nə vaxtdan uzandığına qismən də olsa, aydınlıq gətirək.

Ermənilərin Qarabağla əlaqəsi və onların burada məskunlaşmağa can atması

[1] Bax. X.D.Xəlilov, «Qarabağın elat dünyası» Bakı, «Azərnəşr»-1992.

müxtəlif dövrlərdə Azərbaycanın yadellilər tərəfindən işğalı zamanı ermənilərin qəsbkarlara göstərdikləri «tarixi xidmətlər»i və etiqadları ilə birbaşa bağlı olmuşdur.

X əsrin axırına kimi Azərbaycanda İslam dini əsasən qalib gəldi. Xristian dini etiqadında qalan əhali isə indiki Qarabağın dağlıq hissəsində toplaşıb orada Xaçın knyazlığı yaratmışdı.

Hələ XVIII əsrdə Xaçın knyazı Həsən Cəlalın dövründə Qandzasar monastrı tikilərək, alban katalikosluğunun mərkəzi yaradıldı və yenidən diofizit təriqəti qalib gəldi. Bu mərkəz müstəqil fəaliyyət göstərib, erməni kilsəsi ilə razılaşmamağa başladı. Alban kilsəsinin bu üstünlüyü çarizmin Azərbaycanı işğal etməsindən sonra da, yəni 1836-cı ilədək davam etdi. Tarixçilər Arsax-Xaçın ərazisində xristianlığın alban diofizit və erməni monofizit təriqətindən danışarkən albanların məhz bu ərazidə yaşayan Xaçın tayfalarının etnik mənsubiyyətindən, ərazisinin iqtisadi-mədəni cəhətdən, hansı etnoqrafik əyalət və dövlətlə tarixi bağlılığından ya yan keçir, ya da bunu ikinci dərəcəli hesab edirlər. Ümumiyyətlə, tarixi mənbələrə görə, Zəngəzur və Qarabağda aparılan tarixi etnoqrafik tədqiqatlar təsdiqləyir ki, Qarabağ əhalisi bir kökdən albanlardan ibarətdir.

1723-cü ildə Qarabağ məlikləri I Pyotra göndərdikləri məktubda özlərini alban (ağvan) adlandırır, həmçinin onlarla qonşuluqda yaşayan əhalinin müsəlman alban (ağvan)





olduqlarını göstərirdilər. Bu fakt da Qarabağ əhalisinin etnik tərkibcə eyni mənşəli olmasını təsdiqləyir. Digər tərəfdən Qarabağın inzibati bölgüsündə işlədilən məliklik anlayışı da yalnız Azərbaycana məxsus inzibati ərazi bölgü sistemidir.

Azərbaycanın məlik-feodal anlayışının qarışığı naxardır. Bu termin nə Qarabağda, nə də Azərbaycanın digər bölgələrində qeydə alınmamışdır. Toponimist alimlər də Qarabağ, Arsax, Xaçın, Alban terminlərinin türk mənşəli olması haqqında yekdil fikirdədirlər.

Alban etnonimi öz paralelini ancaq türk xalqları - Qazax, Qırğız, Türkmən, Türk və Altay xalqları arasında tapır. «Alban» sözünü çinlilər «Azərbaycan» kimi tərcümə edirlər. Dağlıq Qarabağ Arsax (ər-sak) adının hələ dördüncü minillikdə Kür-Araz çayları arasında öz çarlığını yaradan skiflərin adından alındığı da tarixi mənbələrə əsaslanan faktlardandır.

Assur mənbələrində aşquza işquza kimi qeyd edilmişdir. Qarabağın dağlıq hissəsini təşkil edən mahalda tayfaların konsolidasiyası sayəsində Xaçın tayfası üstün mövqe tutanda bu mahal Xaçın mahalı, cavanşir nəsli siyasi həyatda aparıcı qüvvəyə çevriləndə isə cavanşir mahalı adını almış və ətraf ərazi bura tabe olmuşdur.

***

XX əsrin başlanğıcında çar Rusiyasının Azərbaycanı işğal etməsi planlı və ardıcıl surətdə həyata keçirilirdi. Qafqaz qoşunlarının Baş Komandanı Sisiyanov Gəncəni tutandan sonra, 1805-ci il 22 may tarixli 19 saylı raportunda yazırdı: «Qarabağ özünün coğrafi mövqeyinə görə Azərbaycanın, eləcə də İranın qapısı hesab edilir, buna görə də onu itaətdə saxlamalı və burada öz mövqeyimizi möhkəmlətməyə daha çox cəhd göstərməliyik».

Belə bir çirkin məqsəd tezliklə həyata keçirildi və 1805-ci il mayın 24-də Kürəkçay sahilində Qarabağ xanı İbrahim xanla Sisiyanov arasında bağlanan müqaviləyə əsasən, Qarabağ xanlığı (tarixi Qarabağ) Rusiya tabeliyinə daxil oldu.

1822-ci ildə Qarabağ xanlığı ləğv edilib, əvəzində eyni adlı əyalət yaradıldı ki, o da (1840-cı ildə) Şuşa qəzasına çevrilib Kaspi (Xəzər) vilayətinə daxil edildi. 1868-ci ildə Yelizavetpol (Gəncə) quberniyası yaradılarkən Şuşa qəzası bu quberniyaya daxil edildi və tərkibində yeni, Zəngəzur qəzası yaradıldı. 1883-cü ildə Şuşa qəzasının tərkibində yeni cavanşir və cəbrayıl qəzaları təşkil olundu. Kəlbəcər isə həmin cavanşir qəzasının tərkibinə daxil edildi.

Onu da qeyd edək ki, Qarabağın bu inzibati bölgüsü 1921-ci ilə kimi davam etdirilmiş, yəni zaman-zaman parçalanmış, yadellilərin maraq və məqsədlərinə uyğun





gah qəzaya uğramış, gah da mahala çevrilərək siyasi oyunların qurbanı olmuşdur.

Ermənistan adlı bir dövlətin Qafqazda yaranması zərurəti də çarizmin və onun xələfi olan sovet hökumətinin ideyası idi. Ermənistan SSR yaradılarkən tarixi Qarabağın böyük bir hissəsi olan Zəngəzur qəzası 1921-ci ildə ona verilmiş, 1923-cü ildə isə Qarabağın dağlıq hissəsində (cavanşir qəzası bütövlükdə, Şuşa və cəbrayıl qəzalarının isə dağlıq hissəsi) ermənilərə muxtariyyət verildi. Beləliklə, DQMV yaradıldı və o vaxtdan leksionumuza «Dağlıq Qarabağ» ifadəsi daxil edildi.

Nəticədə Qarabağ və onun istər dağlıq, istərsə də aran hissələri qəsbkarların işğalına məruz qalmışdır. Ötən əsrin sonlarında isə ermənilər rus şovinizminin hərbi-siyasi, iqtisadi-sosial dəstəyi ilə yenidən Azərbaycanın ərazilərinə soxularaq daha dözülməz vəziyyət yaratmış, nəinki Qarabağın dağlıq hissəsini, hətta aran Qarabağımızı da işğala məruz qoymuşdur. Zəngəzurdan, İrəvandan və orada vaxtilə mövcud olmuş on iki mahalımızdan qovulan soydaşlarımızla birlikdə Laçın, Şuşa, Kəlbəcər, Ağdam, Füzuli, cəbrayıl, Qubadlı və Zəngilandan didərgin salınmış bir milyondan artıq soydaşımız doğma ev-eşiyindən perik düşmüşdür.

***

## Maddi-mədəniyyət abidələri Qalaları

Kəlbəcərin qayaüstü təsvirləri də öz mövzu dərinliyinə, tarixi və bədii dəyərlərinə görə, 1977-ci ildə Moskvada keçirilən elmi simpoziumda İttifaq miqyasında ilin ən dəyərli kəşfi kimi dəyərləndirilmişdir. Kəlbəcərin qayaüstü təsvirləri, rəsmləri dünya şöhrətli alim, Rusiya Arxeoloji cəmiyyəti Şərq bölməsi Azərbaycan bürosunun prezidenti, Türkmənistan prezidenti yanında Türkmənistan, Mərkəzi Asiya və şərq xalqlarının mədəni mirası institutunun beynəlxalq elmi şurasının üzvü, Beynəlxalq Xalça Assosiasiyasının üzvü, Bakı Dövlət Universitetinin professoru Hidayət cəfərov, professor Əjdər Fərzəli, mərhum şair-alim, Kəlbəcər tarix-diyarşünaslıq muzeyinin direktoru Şamil Əsgər Dəlidağ da qayaüstü təsvirləri, rəsmləri tədqiq edənlərin sırasındadır.

Bu rəsm və işarələr, Gəmiqaya və Qobustandakı qayalar üzərində olan rəsm və işarələr də bir daha dünyaya sübut edir ki, bu yazılı tarix yalnız Azərbaycan xalqınındır. Eyni mifik təfəkkürün, eyni maddi-mənəvi inamın – türkün əzəli Tanrıçılıq inamının qayalara köçürülmüş simvolik surətidir.

Q.İsmayılovun, Ş.Ə.Dəlidağın Kəlbəcər və Dəlidağda, eləcə də rayonun digər ərazilərində yazıya aldığı qayaüstü təsvirlərin





piktoqrafik yazıların elmi tədqiqi belə bir nəticəyə gəlməyə əsas verir...».

Məlum olduğu kimi, ilk insan düşərgələrinin, karst mağaralarının yayıldığı ərazilərdən biri də Azərbaycanın şəfalı və səfalı guşələrindən olan Kəlbəcər rayonudur. Azərbaycan Respublikası Arxeologiya və Etnoqrafiya İnstitutunun paleolit arxeoloji ekspedisiyasının üzvləri professor Əsədulla Cəfərov, M.Hüseynov, V.Əliyev, M.Mansurov və başqaları tərəfindən Kəlbəcər rayonu ərazisində 1981-87-ci illərdə, Tərtər, Şordərə, Qamışlı, Qoşa kaha, Dəhnə, İstisu, Orta Şurtan, Zar mağaraları tədqiq edilmiş və müəyyən olunmuşdur ki, bu ərazilərdə qədim insanlar hələ paleolit dövründən yaşamağa başlamışlar.

Kəlbəcər rayonu ərazisində qədim qala, məbəd, monastr xarabalıqlarına, onların qalıqlarına rast gəlinmişdir. İstisuya yaxın Yazyurdu adlanan yerdə diametri 20 metrə yaxın, təxminən 12 otaqdan ibarət qalanın xarabalığı, Keştək kəndində, Kəlbəcər-İstisu magistral yolunun üstündəki məbəd qalıqları, Zar kəndindəki məbəd, Bulanıqsu, Xotavənd, Çəpli, Lev məbədləri buna misal ola bilər. Bu məbədlərin aşkar olunması, tədqiqi, strukturu, memarlıq xüsusiyyətləri ilə məşğul olan görkəmli alimlərdən Arif Məmmədovun və başqalarının adlarını qeyd etmək yerinə düşərdi. Onun rəhbərliyi ilə məbəd yerlərində aparılmış qazma işləri nəticəsində məlum olmuşdur ki, bu məbədlər öz quruluşuna,

memarlıq xüsusiyyətlərinə görə, VI-XII əsrlərdə inşa edilmişdir. Maraqlısı odur ki, Keştək məbədində tapılmış daşlardan birinin üzərindəki yazılar 7 sətirdən ibarət olub, böyük hərflərlə, intervalsız yazılmışdır. Yazının 2-ci sətrində «Həsənin» sözü oxunur ki, bu da XII-XIII əsrlərdə Xaçın knyazlığının hökmdarı olmuş dörd Həsəndən birinin adıdır.

***

Kəlbəcər özünün tarixini, mədəniyyətini əsrlər boyu saxlayan qədim bir diyar kimi də tanınmışdır. Belə ki, bu ulu insan məskəninin hər hansı tərəfinə ayaq bassan, orada qədim insan məskənləri olan mağaralar, qalalar, abidələr görərsən. Tarixin sərt sınaq və imtahanına məruz qalmış bu yadigarlar insan əli ilə yapıldığı kimi, insan əli ilə də tamamilə məhv olmaq təhlükəsinə qədər dağıdılmış və hətta, bəziləri yerlə-yeksan olunmuşdur. Amma bu da möcüzədir ki, tarixin yaddaşı olan qalalar, mağaralar bəzən özü-özünü hifz etmiş və bizim əsrimizə qədər bir neçə minillik ömür yaşamışlar.

Kəlbəcərin ərazisindəki qalaların təsnifatını verməmişdən öncə onu qeyd etməliyik ki, bu yerlərin sirri açılmamış bir daha məhv edildi. İllərin və əsrlərin yadigarı olan qalalar, məbədlər yadellilərin işğallarına dözsə də, az qala, ilkinliyini, bənzərini itirmişdi.

Kəlbəcərin ərazisi coğrafi baxımdan yüksək dağlıq və dağətəyi adlanır. Qədim abidə





və qalalar da təbii ki, yaşayış məskənlərinin ən yüksək nöqtələrində, çətinliklə gedib çıxılan yerlərdə ucaldılmışdır ki, düşmən həmlələrinin təsiri az olsun və uzaqdan gələn təhlükəni dəf etmək üçün imkan yaransın. Bu baxımdan, Kəlbəcər dörd bir yanı qala və bürclərdən ibarət tarixi abidələr muzeyi idi. Daha doğrusu, təbiətin canlı muzeyi olan Kəlbəcər təkcə bənzərsiz gözəlliklər diyarı yox, eyni zamanda ulu bir məkan kimi də əvəzi olmayan bir yer idi.

Kəlbəcər qalaları, abidələri barədə respublikamızın tanınmış elm, incəsənət xadimləri, tarixçi-arxeoloqları, söz sərrafları vaxtilə cild-cild kitablıq söz demiş, o dağları addım-addım dolaşaraq, bu ulu insan məskənini indiki və gələcək nəsillərə əmanətləmişdilər. Təəssüf ki, əmanətə xəyanət edildi və müqəddəs yerlərimiz murdar düşmən tapdağı altında bizim kimi əzildi, inlədi, məhv edildi, qalan qaya və daşlar üzərindəki alban yazılarını ermənilər hələ keçmiş sovetlər dönəmində pozdu və erməniləşdirdi.

Bir az öncəyə gedib qeyd edək ki, Kəlbəcəri «Azərbaycanın ikinci Qobustanı» adlandıran Xudu Məmmədov, Mirəli Qaşqay, Niyazi İbrahimov, Qüdrət İsmayılov, Ziya Bünyadov, Budaq Budaqov və digər neçə-neçə vətənpərvər ziyalı-alimlərimiz hələ o zamanlar Kəlbəcərin ciddi nəzarətə alınaraq qorunmasını tələb edirdilər. Ona görə ki, türkün tarixi yaşayan qala və abidələr, albanların hələ islamlaşmamış əcdadlarının

yaşayış məskəni olmuş Kəlbəcər xain qonşular tərəfindən mədəni surətdə işğal edilir və erməniləşdirilirdi.

***

Kəlbəcər rayonu ərazisində qəbirüstü abidələrin, heykəllərin tədqiqi ilə alimlərdən M.Xəlilov və S.Nemətova məşğul olmuşlar. Kəlbəcər şəhər qəbristanlığında 1870-ci ildə dəfn olunmuş Oruc Fərəhqanlıya məxsus qəbir üzərindəki at heykəlinin mənsub olduğu tayfanın 250 il bundan qabaq yaşamış xəzərilərə aid olduğunu müəyyənləşdirМишlər. Belə daş heykəllərə Kəlbəcər ərazilərinin hər yerində rast gəlmək olurdu...

***

Tarix elmləri doktoru Qüdrət İsmayılovun və dissertantı Niyazi İbrahimovun apardıqları tədqiqat işlərinin nəticəsinə görə, bura ən qədim insan məskəni olmuşdur. Rayonun ərazisində eramızdan çox-çox əvvəlki minilliklərdən xəbər verən qaya təsvirləri də Kəlbəcərdə az deyildi. «Qobustanın qardaşları» kimi tanınmış sal daşlar da Kəlbəcər dağlarından tapılmışdı. «Soltan Heydər», «Qurbağalı çay», «Turşsu», «Ayıçınqılı», «Gəlinqayası», «Böyükdəvəgözü», «Sərçəli» və s. yerlərdəki qayaüstü təsvirlərlə Qobustandakı «yazılı və şəkilli daşlar» tamamilə bir-birinin oxşarı və ya «əkiz»lərdir. Tarixçi alim Rəşid Göyüşovun, Xudu Məmmədovun və başqalarının fikrincə, bu daşların





üzərindəki şəkillərin yaşı az qala bu daşların öz yaşı qədərdir. Maraqlı budur ki, bu təsvirlər bazalt kimi sərt qayalar üzərinə həkk edilmişdir. Kəlbəcər tarix-diyarşünaslıq muzeyinin həyatına gətirilmiş 28 ədəd yazılı və şəkilli daşlar təkcə Kəlbəcərin deyil, bütövlükdə Azərbaycan torpağının qədim insan məskəni olduğunu sübut edən dəlil idi. Həmin təsvirlərdən biri belə idi: Bir insan fiquru ayağının birini bir dairənin, o birini isə digər bir dairənin üzərinə qoyaraq yuxarıdakı kürəyə baxır. Güman olunan budur ki, insan bir planetdən digərinə uçmaq arzusundadır. İnsan fiqurunun ayağı altındakı dairənin biri Yer, o birisi isə Ay güman olunur. Deməк, insan Yerdən Aya, oradan isə başqa bir planetə uçmaq istəyində hələ o zamanlardan bulunub.

* * *

Qafqaz Albaniyası daim diqət mərkəzində olub. Qafqazda isə Kəlbəcər kimi tarixi əsrlərlə ölçülən insan məskənləri və gözəlliklər diyarı az deyildi. Hər gələn isə bu gözəlliyi bir cür qiymətləndirirdi. Məsələn, Qafqaz geologiyasının atası hesab olunan V. Abix də belələrindən olmuşdur. Onun Kəlbəcər haqqındakı fikri indiyə kimi Kəlbəcərə verilmiş qiymətlər içərisində daha orijinal və təkrarolunmazdır. O demişdir: «Kim ki Tərtər çayı boyunca seyr etməyib, İsveçrənin gözəlliyinə o heyran ola bilər».

Kəlbəcərin ərazisindəki tarixi qalalara

diqqət yetirək. Burada bir çox qalaların qalıqları hələ də qalmaqdadır. Ermənilər həmin qalaları darmadağın ediblər. Belə qalalara misal olaraq «Löh», «Qalaboynu», «comərd»i göstərmək olar. Nisbətən salamat qalanı «Löh» qalası idi. Adı qalanın formasını tamamlayırdı. Qalanın beli dəvə boynuna oxşayırdı. Qalanın başına çıxmaq o qədər də asan məsələ deyildi. Qalanın sinəsi ilə, bir adamın qayadan tuta-tuta, zorla keçə bildiyi cığırdan aşağı baxmaq mümkün deyildir; uçurum və sıldırımlıqdır. Qalaları tədqiq edənlərin fikrincə, bu qalalar karvan yollarının üstündə tikilirmiş ki, bununla da həmin yollara nəzarət olunurmuş. «Löh» qalasının başında qayadan yonulmuş, dərinliyi 3-5 metrə çatan quyular var ki, burada ya ərzaq, ya da su saxlanırmış. Həmin quyuların içərisindən nəhəng palıd ağacları bitib qalxmışdır ki, hər birinin diametri 30-40 sm. olardı. Hansı bulaqdansa bura—qalanın başına su çəkilib. Qalanın Lev çayı istiqamətində iki mağara aşkar olunmuşdu ki, bura da ən qədim insan məskənləri hesab olunurdu. Yayda olduqca sərin, qışda isə isti olan bu mağarada istənilən ərzaq məhsulunu bir ay saxlamaq olurdu, keyfiyyəti itmirdi. «Xos meşəsi» adlanan yerdəki abidənin və buradakı məzar daşlarında alban xaçı olsa da, yaxınlıqdakı «Löh» qalasında belə xaç yoxdur. Bu da onu söyləməyə imkan verir ki, «Löh» qalası hələ albanlardan qat-qat əvvəllər mövcud olmuş insan məskənlərindən biridir.





Kəlbəcər qalalarının içərisində ən yüksəklikdə yerləşəni «Comərd» qalasıdır. Kəlbəcərin ərazi etibarilə ən böyük sahəsi sayılan Qoturluya (sonralar bu dərə Tutquçay adlandırıldı. Tutqu çayının adı ilə—red.) gedən yolun üstündəki comərd kəndindən xeyli yuxarıda, qayalıq başında tikildiyi üçün «comərd» qalası kimi tanınmışdı. Qalanın Kəlbəcər səmti çox sərt sıldırım qayalıqdır ki, bura quş da səkə bilməzdi. Sağ tərəfi, yəni Nəçəfalı kəndi səmti isə daş-qayalardan hörülmüş divardır. Burada dağıntı daha çoxdur, nəinki «Löh» qalasında. «Qaraçanlı» qalası Kəlbəcərdən yuxarıda, Qaraçanlı kəndinin yaxınlığında, Kəlbəcərdən İstisuya gedən yolun solunda, Tərtərin sol sahilindədir. Kəlbəcərdən bura təqribən 7-8 km-dir. «Qalaça» adı ilə tanınan bu gözətçi məntəqəsinə gizli su yolu da var idi. Qalanın sağ yanından Qaraçanlı çayına kimi böyük bir çınqıllıq var. Həmin çınqıllığın altı ilə qalaya bir yol çəkilib. Bu gizli yol çayın göllənən yerinə kimi enirdi.

«Qaraçanlı» qalasının sağ tərəfindəki qayaların altında çoxlu mağaralar da vardı. Aşağıda, Tərtər çayının sahilində isə isti və mineral su vardır. Burada başqa bir möcüzə də diqqəti çəkirdi: bir bulaqdan 5-6 dəqiqədən bir gah xalis mineral, gah da dişgöynədən təmiz su çıxırdı. Sonralar burada istisu axtaranlar buruq vuraraq həmin narzanı itirdilər.

Daha çox dağıdılmış və məhv edilmiş qalalardan biri də «Qalaboynu» qalası idi.

Buradakı qala daha çox böyük bir kəndin xarabalıqlarını xatırladırdı.

«Xudadəng» abidə kompleksi barədə bir qədər ətraflı söz açmalıyıq. Ona görə ki, bu abidənin xüsusiyyətləri digərlərininkindən xeyli fərqlidir. «Xudadəng» kimi tanınmış bu abidə kompleksi Kəlbəcərdən şərqdə, Ağdərə-Kəlbəcər magistral yolunun sahilindəki Bağlıpəyə kəndindən aşağı, yəni Ağdərəyə tərəfdə, Kəlbəcərin 29 kilometrliyindədir.

Abidə barəsində müxtəlif versiyalar söylənilir. Həmin versiyalardan birinə görə, Xaçın-Arsax hökmdarı Alban sərkərdəsi Həsən cəlal XIII əsrdə bu abidəni qızı Arzu Xatunun şərəfinə tikdirib. Gümanlara görə, abidə Arşakilər sülaləsindən olan albanlar tərəfindən inşa edilmişdir ki, bu da eramızdan əvvəl dördüncü minilliyə gedib çıxır. Maraqlısı odur ki, üstü günbəz kimi tikilmiş bu binaların tikintisində ağac materialından istifadə olunmamışdır. Binanın divarlarında yağlı boya ilə çəkilmiş çoxlu şəkillər və yazılar var idi. Ağdərədən və Basarkeçərdən gələn ermənilər həmin xaç və yazıları balta ilə çaparaq yox etmiş və beləliklə, tarixdən izimizi silməyə çalışmışlar.

Həmin abidənin tikintisində istifadə olunan o nəhəng daşların əraziyə haradan və necə gətirilməsi də maraqlıdır. Çünki yaxın ərazidə nə qayalıq vardar, nə də daş karxanası. Nəhəng qaya parçalarının isə bura «başqa planetdən» gətirilməsi mümkün olmazdı. Axtarış nəticəsində məlum olmuşdur ki, həmin daşlar Tərtər çayının sahilindən—





bir dərədə yığılaraq suxurlaşmış və kristallaşmış gildən əmələ gəlmişdir. Abidədən bu «daş karxanası»na təqribən 3 km məsafə olar. Həmin mənbəə 1975-85-ci illərdə aşkar edilmişdi. «Dəmirçi kahası» adlı bu yerdə o zamanlar salınmış körpünün qalıqları da qalmaqda idi.

Həmin abidənin son illər ermənilər tərəfindən «qorunması» göz qabağında idi. Ağdərə RPK katibinin göstərişi ilə abidə-kompleks taxtadan çəpərlənmişdi, baxmayaraq ki, biz o çəpərləri dağıtdıq, amma onlar bununla çox şey etmişdilər. Abidə barəsində xaricdə kinofilm göstərən ermənilər çox ustalıqla alban abidəsini erməni kilsəsi kimi təqdim edir və «ulu Arsaxın maddi-mədəniyyət abidəsinin» türklər tərəfindən dağıdılması haqqında «ürək ağrısı ilə» söz açırdılar.

Alban məbədi Kəlbəcərin bir çox yaşayış məskənlərində hələ də qalmaqda idi. Mozda, Fətallarda, Ağcakənddə, Qamışlıda, Otaqlıda, Bağlıpəyədə, Təkəqayasında, Quzeyçirkində, Aşağı və Yuxarı Xaçda, Sınıqkilsə, Kilsəli və Kilsə kəndlərində, Qaraçanlı və Zarda, Moz Qaraçanlı və Quş yuvasında, Çəpli və Ziveldəki abidələr məhz albanlara məxsus idi və ermənilər onları özlərininki kimi qələmə verirdilər.

Belə məbədlərdən biri də Tərtər çayının sahilində, «Bulanıq su» adlanan yerdə idi. Uzun müddət gözdən və könüldən kənarda qalan bu abidə son illər rayon ziyalıları və rəhbərlik tərəfindən tədqiq olunsa da, respublikanın elm

ocaqları tərəfindən çox laqeydliklə qarşılandı və hətta demək olar ki, qiymət verilmədi. Hansı ki, belə tarixi abidələrlə biz özümüzü və kökümüzü təsdiqləmiş oluruq. «Alban məbədi» uçulub-dağıdıldığından və meşənin içərisində olduğundan, uzun müddət diqqətdən kənarda qalmışdı. Abidənin tədqiqindən sonra ermənilər gecənin və ya günlərin birində həmin abidədəki alban izlərini də yox etdilər.

Kəlbəcərin ərazisivdə belə məbədlərlə yanaşı, yaşı 7-8 min illiyə gedib çıxan qəbristanlıqlar da az deyildi. Bunlardan ən qədimi isə qaya təsvirləridir. Bazalt qayaların üzərinə həkk olunmuş yallı oyunu, insan füqurları, fəza cisimləri, ev heyvanlarının rəsmləri bir daha sübut edirdi ki, bura ən qədim insan məskənlərindən biri olmuşdur.





## Etnoqrafiyası

Kəlbəcərdəki oronomik toponimlərin hamısı türkmənşəlidir. Bir sıra qədim türk tayfalarının adı bu gün də bu toponimlərdə yaşayır. Bunlardan 20-dək kəndi əhatə edən Ayrım dərəsini (Ayrımlar yaşayan bölgə), 10-dək kəndi əhatə edən Qılınclılar, 6-7 kəndi əhatə edən Alxaslı, 4 kəndi əhatə edən Qaracanlı bölgələrini, eləcə də tayfa adı daşıyan Çıraq (Çıraq tayfası), comərd, Çorman, Tirkeşəvənd (Türkeşkənd), Qanlıkənd, Əsrik, Çovdar, Təkəqaya, Barmaq (Bərmək), Quzeyçirkin (quzlar, oğuzlar), Bozlu, Ayrım, Abdullauşağı (Abdallar), Zülfüqarlı, Keçiliqaya, Başlıbel, Qaragüney, Çəpli (Çəpni tayfası), Zar, Zivel, Yanşaq, Söyüdlər (biz Seyidlər deyirik) və bir sıra başqa yaşayış məskənlərini, Çiçəkli, Söyüdlü, Qazıxanlı, Abdal, Qaraxanlı, Bağırxan, Taxta və b. yaylaqları, Qaramanlı, Xəndək, Güzdək, Tələlər, Aluluq, Quturlu (Qoturlu kimi işlədirik), Tərtər, Dəlidağ, Keyti, Tamaşa, Qoçdaş, Dikyurd, Yellicə, Aydoğan, Qoşqar və s. dağ, dərə, əkin-biçənək adlarını— türkmənşəli toponimləri göstərmək olar.

**Ağdaban kəndinin də qədim alban tayfasının adını daşıdığı güman edilir. «Alban» adının Ağuan, Aluan, Ağvan, Andan kimi təhrif olunmuş adlarından birinin də Ağdavan(Ağ duman) olması istisna deyil.**

XI əsrdən başlayaraq, bir sıra tarixi sə-

bəblərdən, xarici təcavüzkarların basqınlarından oğuz türklərinin vaxtaşırı yerdəyişməsi baş vermişdir. Bu səbəbdən bir sıra tayfalar öz adlarını qonşu dövlətlərin ərazilərində də əbədiləşdirmişlər. Buna görə də Kəlbəcərdəki toponimlərə ölkənin başqa regionlarında, həmçinin qonşu dövlətlərin ərazisilərində də rast gəlinir.

Kəlbəcərlilər ulu babalarının bağlı olduqları köklər və məskənlər barədə yazılı məlumata malikdirlər. Onlar əsillərinin əsasən aran və dağ Qarabağla, cənubi Azərbaycanla, Zəngəzurla, Dərələyəzlə, Qazax-Tovusla və s. bağlı olduğunu söyləyirlər. Ən qədim kökləri isə cənubi Azərbaycana gedib çıxır.





## Ərazisi və sərhədləri

Kəlbəcər ərazisinin xeyli hissəsi sonralar Ermənistan adlanan dövlətin Göyçə mahalının Basarkeçər (Vardenis) rayonu ilə həmsərhəd idi. Qayaüstü təsvirlər də məhz həmin ulu məkanlarda—yaylaqlarda idi. Üstü yazılı daşların bir neçəsi Kəlbəcər tarix-diyarşünaslıq muzeyinin həyətinə gətiriləndə də çoxları bunu dərk etmədi və «nahaq yerə bu abidə daşlarını bura gətirirlər»—deyə, öz primitiv düşüncəsi ilə görülən işlərin üstündən qara xət çəkirdi. Amma ermənilərin xislətinə bələd olanlar isə çalışırdılar ki, qiymətli xəzinəmiz, ən azı, gözümüz qarşısında olsun. Beləliklə, işlər yarı-yarımçıq qalırdı. Bundan başqa, 2800 hektar Kəlbəcər torpaqlarının Ermənistana bağışlanması o zamankı sovet rejiminin nəinki Kəlbəcərə, əslində Azərbaycana münasibəti idi. Bunlar o torpaqlar idi ki, altı da, üstü də açılmamış xəzinə idi. «Qırmızı təpə» və «Dəvəgözü dağı» yaxınlığındakı həmin qaya təsvirləri də ermənilərə sovet hakimiyyəti tərəfindən pay edilmişdir. Kəlbəcərin ərazisində ən qiymətli obsidian yatağı da məhz həmin ərazidə yerləşirdi.

## Fiziki coğrafiyası

Kəlbəcərin təbiəti barədə nə demək olar? Təkcə onu deyək ki, səthi dağlıqdır. Dəlidağ, Keyti, Murovdağ, Kəpəz, Şərqi Göyçəgölü, Basarkeçər, Mıxtökən, Qarabağ silsilələrinin və Qarabağ yaylasının bir hissəsi Kəlbəcərin sərhədlərini təşkil edir. Ən yüksək zirvəsi «camışdağ» (Murovdağ silsiləsinin zirvəsindədir, hündürlüyü 3724 metrdir) və Dəlidağdır (3616 metr), Təbaşir, Neoken və Antropogen çökmə və vulkanik süxurları vardır

**İqtisadi xarakteristikası**

Kəlbəcərin iqtisadi rayon kimi təsnifatını verərkən onun əsas gəlir mənbəyi olan heyvandarlıq və tütünçülük sahəsində qazanılanlara diqqət yetirmək lazım gəlir. Son illər hər iki sahədə kəlbəcərlilər xeyli nailiyyət əldə etmiş, bunun müqabilində isə Kəlbəcər iqtisadi və mədəni sahədə respublikanın qabaqcıl bölgələrindən birinə çevrilmişdi.

Rayonun iqtisadi həyatında və turizmin inkişafında mühüm rol oynayan İstisu Kəlbəcərdən cənub-qərb istiqamətdə, dağların zirvəsində yerləşir. Kurortun qənşərində, dağların sinəsində, yaylaqlara doğru uzanan elat yolunun alt yanında tarixi bilinməyən bir insan məskəni də son illər tapılmışdı. Bir-iki nəfərlik tikilmiş mağaranın divarları sal daşlardan, palçıqsız, torpaqsız hörülmüşdür. Hər tərəfi sal qayalardan tikilmiş «evin» üstü də sal daşla örtülmüşdür.





Azərbaycan təbiətinin bilicisi, mərhum akademik Mirəli Qaşqayın gözü ilə bu yerlərə baxsaq və dili ilə desək, belə alınardı: «...Kəlbəcər rayonundakı İstisu mineral su bulağı təbiətin gözəl hədiyyəsidir. Öz kimyəvi tərkibi və fiziki xüsusiyyətlərinə görə, bu sular dünyada məşhur olan Karlovı-Varı bulaqlarının (bu bulaq Çexoslovakiyadadır –red.) eynidir və bəzi xüsusiyyətlərinə görə, dünyada yeganədir. Bu suyun istiliyi 58,8° S qədərdir. Bu bulaqlardan biri 8 metrədək hündürlükdə fəvvarə vurur. Dəniz səviyyəsindən 2225 metr yüksəklikdədir...».

...Respublika Səhiyyə Xalq Komissarlığının sədri Qədirlinin imzası ilə SSRİ Plan Komitəsinə göndərilmiş məktubdan götürülmüş bu sitatdan görünür ki, İstisu sanatoriyasının beynəlxalq əhəmiyyət daşıması onu diqqət mərkəzinə çəkmişdir.

Sutka ərzində 500 min litr müalicəvi əhəmiyyətli suyun havayı axmasını göstərən Qədirli cənabları onu da unutmurdu ki, dünyada anoloqu olmayan bu narzan bulaqlar məşhur Karlovı-Varı istisuyu ilə eyni tərkibə malikdir və bəlkə də ondan keyfiyyətlidir.

Qoturlu narzanının Tutqu çayı kənarında, Tərtər çayının sol sahilində, xeyli yüksəklikdə yerləşdiyi də məktubda öz əksini tapmışdır.

Məktubda göstərilir ki, o zamanın ən görkəmli kimyaçı alimi E. E. Karstenski Kəlbəcər ərazisindəki mineral suları yoxladıqdan sonra İstisuyun müalicəvi əhəmiyyə-

tini daha yüksək (hətta Karlovı-Varıdan da yüksək) qiymətləndirmiş və adıçəkilən müalicə ocağının təkcə bu əraziyə, Azərbaycana, SSRİ-yə deyil, dünyaya şöhrət gətirəcək bir mənbə olduğunu göstərmişdir.

Pyatiqorskinin müalicə institutlarında suyun tərkibi və keyfiyyəti yoxlanıldıqdan sonra məlum olmuşdur ki, bu suyun təkrarı ölkədə (SSRİ nəzərdə tutulub—red.), bəlkə də dünyada yoxdur. Təsadüfi olaraq yer üzünə çıxmış bu təbii ehtiyat yatağının gələcəkdə (təbii ki, indiki vaxtlar nəzərdə tutulub–red.) bu regiona başucalığı gətirəcəyini də Karstenski demişdir.

Dəqiqləşdirmələrə görə, yerin təkindən, ən dərin laylarından çıxmış suyun dərəcəsi yuxarıda göstərildiyi kimi, 58° S, cəmi minerالların sayı 6,7 qrama çatan 1 litr suyun tərkibi göstərir ki, burada litium, brom, yod, mərgümüş, fosfor, sink, med, nikel, maqnezium, dəmir və s. kimyəvi maddələrlə zəngindir.

İstisu Göyçə gölündən 300 verstlik yolda, dağlıqda yerləşir. Kəlbəcərin qərb hissəsində silsilə dağ yamaclarındadır. Oradan dəmiryol stansiyasına (Ağstafaya) 112 verst maşın yoludur ki, onu da 15 saata gəlmək mümkündür.

Yevlax-Bərdə dəmir yolu ilə isə İstisuya Tərtər-Ağdərədən keçməklə gəlmək olar ki, bu yol da çox sonralar əllə açılmış və 200 km-dir. Kəlbəcər-İstisu arası isə Tərtər çayı boyunça uzanan maşın yolu ilə 25 km-dir.





İstisuda müalicə-istirahət zonasının yaranması sovet hakimiyyəti qurulduqdan sonra, daha dəqiq desək, 1925-ci ildən Azərbaycan hökumətinin diqqət mərkəzində olmuşdur. Hələ 1926-cı ildə Respublika Ali İqtisad Soveti İstisudakı su mənbələrində istirahət-müalicə tikintiləri aparılması barədə qərar qəbul etmişdi. Sonralar bu məsələ Azərb. K(b)P MK-nın birinci katibi M. c. Bağırovun şəxsi diqqət mərkəzində olmuşdur. 1928-ci ildə isə İstisu sanatoriyasının tikilməsi, yollar çəkilməsi Sovetlərin qurultayında qaldırılmış, M. c. Bağırov öz məruzəsində İstisuya xeyli yer ayırmışdır. O zamanlar sanatoriyanın tikintisi birinci beşillik plana salınmışdır.

Otuzuncu illərin sonlarında M. c. Bağırov özü İstisuda olmuş, tikinti işləri ilə maraqlanmışdır.

1941-ci ildə Böyük Vətən müharibəsinin başlanması İstisuda tikintinin gedişinə də öz təsirini göstərmiş, iş demək olar ki, dayanmışdır. Sanatoriyanın tikintisinə diqqət 1945-ci ildən sonra yenidən artmışdır.

Görkəmli seleksiyaçı alim, ictimai və dövlət xadimi, Azərbaycan KP MK-nın birinci katibi İ. Mustafayev XX əsrin əllinci illərində Kəlbəcər əhalisinin köçürülməsi, buradan ancaq yaylaq kimi istifadə edilməsi barədə ermənilərin hiylə və məkrli siyasətinin formalaşdırdığı bu fikri puça çıxarmaq üçün Kəlbəcərə xüsusi diqqət yetirmişdir.

1987-89-cu illər ərzində İstisu qəsəbəsin-

də 3000 kvadratmetr yaşayış evi, 192 şakird-yerlik məktəb, 140 uşaq yerlik uşaq bağçası, 70 yerlik ambulatoriya (poliklinika ilə birlikdə), 400 yerlik qış kinoteatrı, 25000 nüsxə kitab fondu olan kitabxana, 250 kvadratmetrlik dükan, sutkada 900 kubmetr su vuran sutəchizatı tikintisinin başa çatdırılması da içraçı təşkilatlara tapşırılmışdır.

* * *

İstisu mənbəələrindən hər il 3 milyard 963 milyon 316 min litr su çıxır—sudolduran sexlər isə bunun cəmi 22 milyon litrindən istifadə etmək gücündə idi. Qalan 3 milyard 941 milyon 316.000 litr istisu havayı axıb gedirdi. Əgər həmin sular yığılıb satılarsa, bir iddə 630 milyon 610 min 560 manat gəlir əldə etmək olardı. Azərbaycan SSR Dövlət Plan Komitəsi istisu mənbəələrindən istifadə edilməsi məsələsini müzakirə edərək, 1968-ci ildə hər il 10 milyon şərti-butulka istisu istehsal edən zavod tikilməsi barədə tədbir görmüşdü.





## Faydalı qazıntıları

Bu barədə ayrıca söz açılacaq, lakin yeri gəlmişkən qeyd etməliyik ki, burada civə (Şorbulaq və Ağyataq ərazilərində), mineral suları (İstisu, Bağırsaq, Qoturlu bölgələrində), qızıl, tikinti materialları və s. vardır.

Ərazinin çox hissəsində qışı quraqlıq keçən soyuq və dağlıq Tundra iqlimi tipləri hakimdir. Orta temperatur yanvar ayında -3 °S-dən -10°-dək, iyulda isə +5-dən +20 dərəcəyədəkdir. İllik yağıntı 700-900 mm-dir. Ən böyük çayı Tərtər (yuxarı axını) və onun qollarıdır. Lev çayı, Tutqu çayı, Ayrım, Qamışlıçay çayları Kəlbəcərin ərazisindən başlanır. Burada «Zalxa» və «Alagöllər» kimi təbiətin möcüzəsi olan göllər də vardır. Ərazidə əsasən çimli dağ-çəmən və qonur dağ-meşə torpaqları yayılmışdır. Rayonun mərkəzi və şəhər hissəsində enliyarpaqlı meşələr (palıd, fıstıq, vələs), meşə-çöl bitkiləri, yüksək, qismən orta dağlıqda alp və subalp çəmənlikləri geniş ərazini əhatə etmişdir. Meşələrin ümumi sahəsi 280.000 hektardır. Kəlbəcərin dağ və meşələrində qağkeçisi, qurd, maral, əlik, ceyran, qonur ayı, çöl donuzu, daşlıq dələsi, dovşan, çölpişiyi (bəbir), tülkü, çaqqal, ular, qartal və s. vardır.

# KƏLBƏCƏRİN TƏBİİ SƏRVƏTLƏRİ

## Kəlbəcərin qızılı

Ermənistanın Basarkeçər rayonunun qızıl zavodunun tikintisi böyük sürətlə aparılırdı. Sonralar öyrənildi ki, A. Mikoyan SSRİ Dövlət Plan Komitəsində və nazirliklərdə bu məsələni Ermənistanın xeyrinə həll etdirib. Bu nadir və qiymətli sərvətə sahib olduqları üçün ermənilər şadlıqlar keçirib, rəhbərlik isə dövlət səviyyəsində banketlər vermişdi. Qızıl yataqlarının ermənilərin əlinə keçməsində xarici ermənilər də az rol oynamamışdılar. Məhz onların təkidi və Ermənistan Elmlər Akademiyasının prezidenti, Basarkeçər kəndində anadan olmuş Viktor Hamparsumyanın təşəbbüsü ilə sonralar Qızıl emalı zavodu və fəhlə qəsəbəsi Zodda tikilmədi. Qəsəbə Basarkeçər kəndində salındı, zavod isə Vedi rayonunun Dəvəli kəndində tikildi və həmin kənd Ararat qəsəbəsi, zavod isə Ararat Qızılsaflaşdırma Zavodu adlandırıldı. Ermənilər bu addımı çox uzaqgörənliklə atdılar. Əvvəla, başdan-başa azərbaycanlılar yaşayan rayonda qiymətli metal müəssisəsi yaratmaq istəmədilər. Çünki fəhlələr Basarkeçər və Kəlbəcər rayonlarının əhalisindən, yəni azərbaycanlılardan olacaqdı. Bundan başqa, belə bir zavodun Azərbaycan sərhədi zonasında salınması onları vahiməyə salırdı ki, Azərbaycan sabah öz





qızılına sahib ola bilər. Elə buna görə də ermənilər çox ustalıqla öz hiyləgər metodlarından bacarıqla istifadə etməklə, zavodun yerini dəyişdirmişdilər.

Bəs onlar nəyi əsas götürərək, zavodu mədəndən uzaq məsafədə tikdilər? Onlar bunun üçün belə bir «dəlili» ön plana çəkdilər ki, zavod Göyçə gölünün ekologiyasına ciddi zərər vura bilər. Yuyulmuş qum Göyçə gölünə axıdılar və onun bulaqlarının gözünü tutar, gölün qurumasına səbəb olardı. Bu da Ermənistanı yox şəklinə salardı. Beləliklə, zavod mədəndən 280 kilometr kənarda, Araz çayının 8-10 kilometrliyində tikildi. Bu isə ermənilər üçün çox əlverişli idi. Çünki onlar Araz çayının sularından o məsafədə istifadə etmirlər. Çayın çirklənməsi onları qətiyyən maraqlandırmırdı.

Biz, əlbəttə, o dövrdə ermənilərin bütün bu hiylələrini görürdük, bəzən bu və ya digər yolla etirazlarımızı bildirirdik. Lakin elə bir sistemdə yaşayırdıq ki, bizim haqq səsimizi eşidən belə yox idi. Bəzən də daxili əzabımızı, nifrətimizi büruzə verməklə, özümüzü məhv etmiş olurduq. Belə işlər orada yaşayan azərbaycanlılara, xüsusilə də rəhbər partiya və dövlət işçilərinə çox baha başa gəlirdi. Ermənilər oradakı soydaşlarımızı millətçilikdə təqsirləndirib, ağır cəzalar belə verməkdən çəkinmirdilər.

O vaxtlar Azərbaycanın müstəqil olması ürəyimizdən keçsə də, bizə xəyal kimi görünürdü. Yəqin ki, müstəqil olsaydı, respublika

öz halal sərvətini Kəlbəcər qızılını ermənilərə güzəştə getməzdi.

Torpaqlarımızın bir qarışını da heç kimə güzəştə ketmək olmaz. Tarixdə müharibələr, qələbələr, məğlubiyyətlər çox olub. Lakin babaların qoruyub saxladıqları torpaq— Ana Vətən itirilməyib. Bu gün ermənilərin min bir fırıldaqla, müvəqqəti işğal etdikləri ərazilərimiz qaytarılacaq, ildə 6-7 ton qızıl verən mədənlərimiz də öz həqiqi sahibinə—özümüzə çatdırılacaqdır.

**Dərman bitkiləri**

Kəlbəcərin ərazisindəki təbii sərvətləri saymaqla qurtarmaq mümkün deyildir. Bu ulu insan məskəninin istər daş-qayası, istər torpağı, suyu, istərsə də havası loğmandır. Lakin Kəlbəcərin sərvətləri saydıqlarımız ola bilməz. Onun yabanı bitkilərinin min bir dərdin dərmanı olması barədə də xeyli məlumat əldə olunmuşdur.

Kəlbəcər ərazisindən toplanmış bitkilər təxminən dörd min adda idi ki, onun da iki yüzə qədəri dərman bitkisi kimi qiymətləndirilmişdir.

Həmin bitkilərin hər birinin ayrı-ayrılıqda hansı dərdin dərmanı olması da öyrənilmiş və rayon tarix-digarşünaslıq muzeyində təbii qurudulmuş bitkinin kataloquna yazılmışdı.

Həmin bitkilərin hansı dərdin dərmanı olmasını kəlbəcərlilər bilir, odur ki, biz onların bir qisminin adlarını qeyd edəcəyik.

Maralçiçəyi, qaytarma, qantəpər, qaraqınıq, qarağat, qarğıdalı, qatırquyruğu, qızılgül, qırxbuğum, qovaq, qoz, qurdotu, inciçiçəyi, lərgə, gərməşov, isitməotu, acıçiçək, ayıdoşəyi, bağ səhləbı, acı əvəlik, bağayarpağı, boyaqotu, ərik, əsmə, yerkökü, albalı, baldırğan, ballıca, yonca, qarağat, moruq, gülxətmi, keşniş, vəhşi keşniş, balqabaq, qantəpər, əzgil, kərövüz, lobya, meşəgilası, əzcır alma, armud, gilənar, gilas, güləbətin, əzgil, novruzgülü, palıd, pərpətöyün, kəklikotu, kələm, quşəppəyi, nanə, nərgiz, murdarça, pişikotu, pıtraqotu, cincilim, tərxun, tozağacı, söyüd, turp, fıstıq, fındıq, cəfəri, üskükotu, çuğundur, şam, şahtərə, şomu, şüyüd, çiyələk, çobanyastığı, xədicəgülü, dağ yoncası, dəmrovotu, giçiktkən, həməköməci, böyürtkən, quzuqulağı, baldırğan, kığ, şoşan, cajıx, lilpar, xımı, kortum, yarpız, zirə, südlü pencər, saqqızotu, yolotu, sümürkkən, inək-buğa, danaqıran, xınçılovuz, peşəməngülü, öküzboğan, çölsoğanı, solmazçiçəyi, kəvər, əlöyüz, sarımsaq, reyhan, razyana, gavalı, dazıotu, dalamaz, bəlğəmotu, ardıc, çaşır, çiyələk, itburnu (həmərsün), qoyungözü, qıjı, pıtraq və s.

## Kəlbəcərin meşə sərvətləri

Kəlbəcərin ərazisinin xeyli hissəsini alp meşələri təşkil edir. Bura əsasən enliyarpaqlı ağaclar məskənidir. Adları «Qırmızı kitab»a düşmüş nadir meşə ağacları Kəlbəcər meşələrinin əsasını təşkil edir. Meşənin xeyli hissəsini Ağdərədə yaşayan ermənilər mənimsəmişdi. Ağdaban-Bağlıpəyə ərazisindəki meşə zolağı ermənilər tərəfindən talan edilirdi. Buradakı ağacların əksəriyyəti qoz, fındıq, palıd, fıstıq, qayın, vələs, dağdağan, ayıgilası, göyrüş, qovaq, qaraağac, itburnu, yemişan, qarağat, moruq kimi kəsilməsi qadağan olunmuş ağaclardır.

Kəlbəcər meşələrində cır meyvə ağacları az deyildir.

Kəlbəcərin meşə sərvətlərindən uzun illər səmərəli istifadə olunmamışdır. Buna sadəcə, respublika və ittifaq miqyasında şərait yaradılmamışdır. Meşələrimizin meyvələrindən əvvəllər heç bir məhsul hazırlanmazdı. Lakin son 15-20 il ərzində meyvələrdən dadlı-tamlı mürəbbə, cem və başqa məhsullar alınırdı. Bir vaxtlar yalnız heyvandarlıqla məşğul olan kəlbəcərlilər son illər bağ-bağat salır və onun meyvəsini konservləşdirərək qış azuqəsi hazırlayırdı.

Ermənilərin Kəlbəcərə hücumundan bir-iki il əvvəl rayon ərazisində meyvə-tərəvəz konservləşdirmə məntəqəsi açılmış və uzun illər istifadə olunmayan meyvə-tərəvəzdən konserv hazırlanırdı.





Kəlbəcərin meyvəsinin dadı-tamı aranda yetişən meyvədəkindən çox fərqlənirdi: ləzzətinə görə. Bunun da bir çox səbəbləri var idi. Kəlbəcərin torpaqları dağ-meşə torpağıdır. Onu da deyək ki, aranda meyvə sovulanda Kəlbəcərdə yenicə dəyirdi. Ona görə də deyə bilərik ki, rayon əhalisi bir ildə iki dəfə təzə meyvə dadırdı.

Kəlbəcərin ərazisində 2000 rəng çaları olan daşlar vardır.

Kəlbəcərin ərazisində bizim dəvəgözü adlandırdığımız obsidian yatağının olması da dərin tədqiqat tələb etmir. Keştək kəndinin ərazisində üstü mamır bağlamış obsidian qayalığının—yatağının olması geoloq-alim Əli Məqribiyə də məlum idi. Qızdırıldıqda 18 dəfə böyüyən və rəngi dəyişən, isti-soyuğu keçirməyən bu daş xəzinəsindən istifadə etməklə, xeyli iqtisadi qənaət əldə etmək mümkün olardı.

Geologiya elmləri doktoru Şamil Allahverdiyevin, geologiya elmləri namizədi İbrahim Babayevin, Əli Məqribinin, Hikmət Mahmudun və başqalarının tədqiqinə görə, Kəlbəcərdə 79 növ mineral, 36 növ süxur daşları vardır.

# KƏLBƏCƏRİN ƏRAZİSİNDƏKİ SÜXURLAR VƏ MİNERALLAR

## Suxurlar

Jadenit, qranit, andezit, burnonit, brekçiya, dağ bülluru, dendirit, zimevit, əhəngdaşı, vulkan bombası qranediorit, aplit, yaşma, kvasit, lapilli, korall, mərmər, pesannik, riloit, tuf, suçlinok, traverit, traktolit, mikroklin, pemza, serpentitit, traxit, slanets, sienist, miqmatit, amfibolit, konqlomerat listevenit, diorit, qabro bismut və s.

## Minerallar

Xalkozin, xalkoprit, lazurit, limonit, kaleit, opal, sfen, xlorit, topaz, nikelin, şirgözü, fuksit, şinipel, vismotit, araqonit, qematit, diallaq, maqnezit, molibdenit, barit, antimonit, aqat, qızıl, diopist, gips, oniks, kremen, kinovar, dolomt, azurit, ametist, anqidrit, bronzit, ilement, kaleit, labrodor, leytsit, talk, gümüş, patlandit, turmalit, bronit, krokoit, muskovit və s.





## İqtisadiyyatı və sosial həyatı

Yetmişinci illərdə Azərbaycanda başlanmış sosial-iqtisadi, mədəni inkişafın dalğaları ucqar dağ rayonlarının da həyatında öz əksini tapmağa başladı. Xüsusilə əvvəllər, elə o dövrün özündə də bəzi dairələrdə perspektivsiz rayon kimi qiymətləndirilən, hətta əhalisinin aran rayonlarına köçürülməsi və yalnız yaylaq məqsədilə istifadə olunması məsləhət bilinən Kəlbəcər üçün bu inkişaf misilsiz əhəmiyyətə malik idi. Çünki hələ 50-ci illərdən ermənilərin və onların Moskva və Bakıdakı havadarlarının, çox da uzağı görmək bacarığı olmayan respublikanın bəzi rəhbərlərinin Kəlbəcər əhalisini köçürmək təşəbbüsündə bulunmaları rayonun taleyini dəfələrlə zərbə altında qoymuşdu. Yalnız yerli əhalinin və ağsaqqalların qəti etirazları bu çirkin məqsədlərin həyata keçməsinə mane olmuşdu. Həm də Kəlbəcərin nə demək olduğunu aydın dərk edən o dövrün kəlbəcərli ziyalıları və vəzifəli şəxsləri—Səfər Verdiyev, Qənbər Qurbanov, Hacıbaba Mehdiyev, Qaçay Əsgərov, Kərəm Əhmədov, Əvəz Şükürov, İsa Təhməzov, Şükür Şükürov, Tapdıq cəfərov, Bəhmən cəfərov, İbrahim Fərəcov, Təhməz cəfərov... kimi neçə-neçə vətənpərvərləri bu «ideya»nın gerçəkləşdirilməsinə maneçilikdə başlıca rol oynamışdılar. Lakin 1969-cu ilə qədər bu məsələ, neçə

deyərlər, qüvvəsində qalırdı və respublika rəhbərliyindən çoxları rayon rəhbərliyinə təzyiq göstərməyə çalışır, hətta bəzən dilə də tuturdular.

Yalnız Ümummilli liderimiz Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi təyin olunandan sonra dağ rayonlarının, o cümlədən Kəlbəcərin taleyinə işıq düşdü.

Heydər Əliyev Kəlbəcər RPK-nın katibinə hələ o zamanlar demişdir: «Mərkəzi Komitədə və Nazirlər Sovetində belə söhbətlər gedirdi ki, Kəlbəcər perspektivsiz bir rayondur, özünü doğrulda bilmir. Yeganə yol guya onun əhalisini aran rayonlarına köçürmək, ərazini isə yaylaq kimi bölüşdürməkdir. Lakin bu fikir məndə həmişə şübhə doğurub. Səmimi olmasına heç vaxt inanmamışam. Odur ki, bu barədə mənə təklif olunan qərar-layihəyə də qol çəkməmişəm...».

Bəli, məhz o vaxtlar Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev Kəlbəcərin inzibati ərazi bölgüsü kimi gələcəksiz, heç bir potensial imkanı olmayan, yalnız yaylaq üçün yararlı ərazi olduğunu iddia edənlərin və bu barədə layihə hazırlayanların bütün cəhdlərini puça çıxarmışdır: «...Hesab edirəm ki, Kəlbəcərin imkanları genişdir, hələ bundan sonra da çox işlər görülməlidir. Əvvəllər də, indi də hiss edirdim ki, burada bir məkrli niyyət var. Əhali qətiyyən Kəlbəcərdən köçürülməməlidir»!





Strateji cəhətdən çox əhəmiyyətli olan Kəlbəcər rayonu coğrafi mövqe etibarilə Ermənistan və Dağlıq Qarabağ arasında yerləşən səddir. Sahəsi təqribən 174 min hektara çatan ərazidən əhali köçürüləndən, 128 kənd tamamilə boşaldılandan sonra ermənilər heç bir müqavimətə rast gəlmədən orada sərbəst qaydada məskunlaşmalı və bununla da Ermənistanla DQMV qovuşmalı idi. Faktiki surətdə Ermənistan DQMV-ni o vaxt ələ keçirmiş olardı.

Kəlbəcərin əsaslı inkişaf sürəti rayon partiya komitəsinin təkliflər paketi əsasında hazırlanmış, Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Soveti tərəfindən 1977-ci il dekabrın 8-də qəbul edilmiş «Kəlbəcər rayonunun iqtisadiyyatını və mədəniyyətini inkişaf etdirmək tədbirləri haqqında» 428 saylı birgə qərarından sonra təşəkkül tapmışdır.

Vaxtilə perspektivsiz qiymətləndirilən Kəlbəcər 80-ci illərdə respublika, hətta İttifaq miqyasında sürətlə inkişaf edən bir rayona çevrildi.

Təbiidir ki, iqtisadiyyatın inkişafı sosial-mədəni həyatının da çiçəklənməsinə rəvac verirdi. 80-ci illərin əvvəllərindən başlayaraq Kəlbəcərin sosial həyatı da əsl inqilabi dəyişikliklər dövrünü yaşayırdı.

1983-cü il dekabrın 14-də Kəlbəcərdə 6 bal gücündə zəlzələ oldu. 1984-cü ilin yazında isə respublikanın bir sıra rayonları təbii

deyərlər, qüvvəsində qalırdı və respublika rəhbərliyindən çoxları rayon rəhbərliyinə təzyiq göstərməyə çalışır, hətta bəzən dilə də tuturdular.

Yalnız Ümummilli liderimiz Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi təyin olunandan sonra dağ rayonlarının, o cümlədən Kəlbəcərin taleyinə işıq düşdü.

Heydər Əliyev Kəlbəcər RPK-nın katibinə hələ o zamanlar demişdir: «Mərkəzi Komitədə və Nazirlər Sovetində belə söhbətlər gedirdi ki, Kəlbəcər perspektivsiz bir rayondur, özünü doğrulda bilmir. Yeganə yol guya onun əhalisini aran rayonlarına köçürmək, ərazini isə yaylaq kimi bölüşdürməkdir. Lakin bu fikir məndə həmişə şübhə doğurub. Səmimi olmasına heç vaxt inanmamışam. Odur ki, bu barədə mənə təklif olunan qərar-layihəyə də qol çəkməmişəm...».

Bəli, məhz o vaxtlar Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev Kəlbəcərin inzibati ərazi bölgüsü kimi gələcəksiz, heç bir potensial imkanı olmayan, yalnız yaylaq üçün yararlı ərazi olduğunu iddia edənlərin və bu barədə layihə hazırlayanların bütün cəhdlərini puça çıxarmışdır: «... Hesab edirəm ki, Kəlbəcərin imkanları genişdir, hələ bundan sonra da çox işlər görülməlidir. Əvvəllər də, indi də hiss edirdim ki, burada bir məkrli niyyət var. Əhali qətiyyən Kəlbəcərdən köçürülməməlidir»!





Strateji cəhətdən çox əhəmiyyətli olan Kəlbəcər rayonu coğrafi mövqe etibarilə Ermənistan və Dağlıq Qarabağ arasında yerləşən səddir. Sahəsi təqribən 174 min hektara çatan ərazidən əhali köçürüləndən, 128 kənd tamamilə boşaldılandan sonra ermənilər heç bir müqavimətə rast gəlmədən orada sərbəst qaydada məskunlaşmalı və bununla da Ermənistanla DQMV qovuşmalı idi. Faktiki surətdə Ermənistan DQMV-ni o vaxt ələ keçirmiş olardı.

Kəlbəcərin əsaslı inkişaf sürəti rayon partiya komitəsinin təkliflər paketi əsasında hazırlanmış, Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Soveti tərəfindən 1977-ci il dekabrın 8-də qəbul edilmiş «Kəlbəcər rayonunun iqtisadiyyatını və mədəniyyətini inkişaf etdirmək tədbirləri haqqında» 428 saylı birgə qərarından sonra təşəkkül tapmışdır.

Vaxtilə perspektivsiz qiymətləndirilən Kəlbəcər 80-ci illərdə respublika, hətta İttifaq miqyasında sürətlə inkişaf edən bir rayona çevrildi.

Təbiidir ki, iqtisadiyyatın inkişafı sosial-mədəni həyatının da çiçəklənməsinə rəvac verirdi. 80-ci illərin əvvəllərindən başlayaraq Kəlbəcərin sosial həyatı da əsl inqilabi dəyişikliklər dövrünü yaşayırdı.

1983-cü il dekabrın 14-də Kəlbəcərdə 6 bal gücündə zəlzələ oldu. 1984-cü ilin yazında isə respublikanın bir sıra rayonları təbii

fəlakətə məruz qaldı. O zaman SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi Heydər Əliyevin gərgin səyi ilə təbii fəlakətin nəticələrini aradan qaldırmaq üçün İttifaq büdcəsindən 28 milyon manat vəsait ayrıldı. Kəlbəcərin Azərbaycan üçün nə demək olduğunu çox dəqiq bilən, rayonun inkişafını və yerində möhkəmlənməsini daim diqqət mərkəzində saxlayan və xüsusi qayğı göstərən Ulu öndərimiz Heydər Əliyevin göstərişi ilə həmin vəsaitin 20 milyon manatı Kəlbəcərə ayrılmışdı.

Beləliklə, iqtisadiyyatı çiçəklənən, 1985-ci ildən sonra sosial quruculuğu da yeni vüsət alan Kəlbəcər şəhəri nəhəng tikinti meydanına çevrildi. Şəhərin «Yuxarı düz» sahəsində XXI əsrin şəhəri adlandırılan «Yeni Kəlbəcər» şəhərinin tikintisinə başlanıldı. Şəhər əhalisi, idarə-müəssisə işçiləri yeni şəhərin salınması təşəbbüsünü böyük razılıqla qarşıladı. Hətta, tikintidə sürət və keyfiyyəti təmin etmək məqsədilə iməciliklər keçirmək barədə təşəbbüs qaldırıldı. Bütün şəhərin, hətta yaxın kəndlərin əhalisi təşəbbüsə qoşularaq hər həftə iməciliklərdə iştirak edirdilər. Rayon tikinti qərargahı da rayon ərazisində başlanmış tikintilərə nəzarət baxımından yaradılmışdı.

Qısa vaxt ərzində tikilən obyektlərin bəzilərini xatırlamaq yerinə düşərdi: Hər biri 32 mənzilli, dördmərtəbəli 3 yaşayış evi, 10 ailə üçün nəzərdə tutulmuş beşmərtəbəli 1 yaşayış





evi, 60 yerlik müasir tipli mehmanxana, mükəmməl tibb avadanlığı ilə təchiz olunmuş, 180 çarpayılıq Mərkəzi Xəstəxana, Mərkəzi Kitabxana, musiqi məktəbi, rabitə evi, son dərəcə dəqiq cihazlar quraşdırılmış seysmik stansiya, 5 min tamaşaçı tutan stadion, yanğınsöndürmə stansiyası, çörək zavodu, 1 milyon smeta dəyəri olan istilik sistemi və kanalizasiya, Kəlbəcər-Basarkeçər yüksək gərginlikli elektrik xətti, 10 min kubmetr həcmində su anbarı, smeta dəyəri 97 min rubl olan TİR, şahmat məktəbi, 60 yerlik məişət evi, Şəhər Sovetinin binası, 16 şöbədən ibarət «Univermaq», rayon prokurorluğunun binası, 1176 şagird-yerlik məktəb, əmanət kassası, smeta dəyəri 670 min rubl olan, iməcilik yolu ilə tikilən Kəlbəcər tarix-diyarşünaslıq muzeyi, redaksiya və mətbəə binası, aptek, saatda 50 nəfəri qəbul edən hamam, 147 yerlik uşaq bağçası, rayon xalq məhkəməsinin binası, 7 milyon rubl dəyəri olan ümumi abadlıq işləri, rayon xalq təhsili şöbəsi üçün inzibati idarə binası, meşə idarəsi, asfaltzavod, Kənd Texnika Birliyi üçün inzibati bina, həmin birliyin emalatxanası, 1941-45-ci illər müharibəsində həlak olanların xatirəsinə həsr olunmuş abidə və s.

## Mədəniyyəti

### Kəlbəcər tarix-diyarşünaslıq muzeyi həm də təbiətin canlı muzeyi idi

Yetmişinci illərdən başlayaraq, Azərbaycan təkcə iqtisadi-sosial çiçəklənmə dövrü keçirmirdi. Mədəniyyət, mənəviyyat, soykökünə qayıtmaq əhval-ruhiyyəsi, xalqın keçmişinin ən qiymətli incilərini qoruyub saxlayaraq, gələcək nəsillərə çatdırmaq istəyi, milli-mənəvi dəyərlərin dirçəldilməsinə səy göstərilməsi yeni çalarlar kəsb etməyə başlamışdı. Sovet imperiyasının saxta beynəlmiləlçilik tərbiyəsi pərdəsi altında milli-əxlaqi dəyərləri əritmək, xalqlara keçmişini unutdurmaq, manqurtlaşdırmaq siyasəti əvvəllər milli hisslərdən məhrum olan bəzi respublika rəhbərləri tərəfindən kor-koranə həyata keçirilirdisə, Heydər Əliyevin hakimiyyətə gəlişi ilə proseslər əks istiqamətdə cərəyan etməyə başladı, yəni imperiyanın bu təhlükəli siyasətinə qarşı çox sivil şəkildə müqavimətlər artdı.

Bu illərə qədər yalnız nefti ilə, Bakının simasında tanınan Azərbaycanın mədəniyyəti, incəsənəti tezliklə nəinki Sovet məkanında, dünya səviyyəsində öz yerini tutdu. Xalqda öz keçmişinə, tarixinə hörmət və onu qoruyub saxlamaq hissləri gücləndi. Yeni tarix-diyarşünaslıq muzeylərinin yaradılması da artıq kampaniyaçılıq deyil, xalqın özünəqayıdışının təzahürü idi.





Qədim və ulu tarixə malik olan, öz tarixinin tədqiqini gözləyən Kəlbəcərdə də belə təşəbbüsə qoşulmaq, rayonun tarixini əks etdirən muzey yaratmaq böyük vətənpərvərliklə bərabər, tarixi əhəmiyyətli iş idi. Əslində, Kəlbəcərin özünü ulu Tanrı bir muzey yaratmışdı: ən nadir nemətləri Kəlbəcərə bəxş etmişdi. Saysız-hesabsız keyvir bulaqlar, dörd mindən artıq bitki növləri, qədim loğmanların can dərmanı sayılan, 200 növdən çox dərman bitkiləri, zəngin meşə örtüyü, narzan suları, dünyada tayı-bərabəri olmayan İstisuyu, 100 növdən çox mineral və süxurlardan ibarət olan daş xəzinələri, nadir qayaüstü rəsmlər və s. cəmləşib, Kəlbəcər boyda bir muzey olmuşdu.

Sözün əsl mənasında Kəlbəcərin simvolu idi muzey. Çöl divarların tərtibatında 2000-dən çox müxtəlif rəngli-çalarlı daşlardan istifadə olunmuşdu. Əslində, muzey binası yox, qiymətli bir memarlıq abidəsi, əsasən təbiət təsvirlərindən, Kəlbəcərdə yaşayan heyvan və quşların daşla rəsmlərindən ibarət mozaika yaradılmışdı.

Rayonun əhalisi muzeyə eksponat toplanmasında xüsusi həvəslə iştirak edirdilər. Qısa müddət ərzində 47 min ədəd nadir əşya toplanmışdı.

Bu eksponatların içərisində elə qiymətli əşyalar var idi ki, onlar bütün dünya səviyyəsində nadir eksponatlar sayılırdı. Bəri başdan qeyd edək ki, bu muzey Kəlbəcəri dünyada tanıtmışdı. Dünyanın bir çox ölkələrindən gəlmiş alimlər muzeyə baxanda öz heyranlıqlarını gizlətmir, eksponatlara valeh olurdular. Məsələn, atın Günəş Tanrısına qurban verilməsini əks etdirən barelyefə Amerika alimləri 50 min ABŞ dolları təklif etmişdilər.

Muzey Kəlbəcərin ən qədim yaşayış məskəni olmasını sübut edən tarixi eksponatlarla zənginləşdirilmişdi. Təsadüfi deyildi ki, 80-ci illərin sonları ərəfəsində Moskvada dünya geoloqlarının 27-ci konqresi keçirilərkən, 67 ölkənin 162 alimi adı dillər əzbəri olmuş muzeyi görmək üçün Kəlbəcərə gəlmişdilər. O zaman SSRİ Elmlər Akademiyasının müxbir üzvü A. A. Marakuşov muzeyin xatirə kitabına yazmışdı: «...Bu, dünyada etnoqrafiyaya həsr olunmuş nadir və əvəzedilməz muzeydir».

Muzeyin həyətindəki qaya salları üzərində olan 6-7 min illik tarixə malik keçi təsvirləri, bürünc keçi totemi, habelə muzeydəki kilim, heybə və nənni başlıqları, 100 il bundan əvvəl toxunan primitiv keçi şəkilləri və onların hər üçünün bir-birinə oxşarlığı indiki nəslin qədim kökə bağlı olmasını sübut edir və tarixçilərin mübahisələrinə son qoyurdu.





**Kəlbəcərin Ermənistan tərəfindən işğalı: 2 aprel 1993-cü il**

Bütün bunlara baxmayaraq, bütünlüklə sovet hakimiyyəti illərində Kəlbəcər gözdən uzaq, könüldən iraq bir məkan olmuşdur. Nə əvəzolunmaz təbiəti, nə sərvəti: qızılı, civəsi, uranı, 3 milyard kubmetrlik mərmər yataqları, 280 min hektar meşəsi, 3000-dən çox dişgöynədən, keyvir bulağı, 300-dən artıq narzan mənbəyi, habelə Ermənistanla—daim türk qanına susayan daşnaklarla Azərbaycan arasında qala qapısı olması yalnız şəfa mənbəyi olan İstisuyun hesabına bir qədər diqqət göstərilmişdir. Bu danılmaz həqiqətdir ki, çoxları Kəlbəcəri yaylaq gözündə görmüş, əhalinin burada yaşamasını da lüzumsuz saymış, bəzən də guya çətin şəraitdə yaşayan əhalinin halına yanırmış kimi köçürülməsini məsləhət bilmişdir. Yaxşı ki, ağıllı adamlar, ağsaqqallar bu düşünülməmiş addımların reallaşmasına imkan verməmişlər.

İnkar etmək mümkün deyil ki, Kəlbəcərin inkişafına dair qərar yetmişinci illərin sonlarında qəbul olunmuşdur.

Kəlbəcərin Dağlıq Qarabağla Ermənistan arasında yerləşməsi, təbii qala kimi sədd çəkməsinə baxmayaraq, onun strateji əhəmiyyətinə fikir verilmədiyindən, 1988-ci ildə ermənilər torpaq iddiasına başlayandan Kəlbəcərin

Ağdərə rayonu ərazisindən yolları bağlanmış və əhali, eləcə də ictimai təssərrüfatlar mühasirədə qalmışdı. Bunun üçün müxtəlif istiqamətlərdə yollar araşdırılır, mühasirənin yarılmasına çaldışırdılar. Təbii ki, bütün bunların təşəbbüsü rayon rəhbərliyi tərəfindən irəli sürülürdü. Qəti qərara alınmışdı ki, Laçın və Gəncə istiqamətində, müvəqqəti olsa da, avtomobil yolları çəkilməlidir. Ona görə də 1988-ci il aprel ayının 24-də iki istiqamətdə – Laçın və Gəncə tərəfdən yolların çəkilişinə başlandı.

1988-ci ilin iyun-iyul aylarında Kəlbəcər-Laçın istiqamətində çəkilən yol Laçının Qorçu kəndində birləşdi.

1988-ci il sentyabr ayının 18-də artıq əsrlərə, minilliklərə baş əyməyən Murov ram edilmişdi: Kəlbəcər-Gəncə yolu tamamlanmışdı. Yolun açılışı əsl toy-bayrama (belə bir əhval-ruhiyyə olmasa—red.) çevrilmişdi. Xanlar rayonunun Toğana kəndindən bir neçə kilometr aralıdakı Turşsu bulağının üstündə təntənəli açılış mərasimi keçirildi.

Azərbaycanda və Ermənistanda baş verənlər Kəlbəcərdə sosial-psixoloji durumu dözülməz həddə çatdırmaqdaydı. Bu zamanlar rayon rəhbərliyinin qarşısında sözün həqiqi mənasında həlli çətin olan problemlər dururdu.

Qərbi Azərbaycandan—Ermənistan ərazisindən azərbaycanlıların qovulması Kəlbəcər üçün əlavə problemlər yaradırdı. Neçə ki azərbaycanlılar orada idilər, ermənilərin Kəlbəcərə hücum variantı istisna edilirdi. Çünki Kəlbəcərin Ermənistanla sərhəd yaxınlığındakı Basarkeçər rayonunun demək olar ki, bütün kəndləri azərbaycanlıların idi. Onların oradan çıxarılması, qovulması 136 kilometrlik sərhəd zonasında müdafiə tədbirləri görmək zərurətini kəskin şəkildə ortaya çıxarırdı.

## Ağdaban faciələrinə gedən yol

1989-cu il iyulun 11-də Ağdaban qadınları kəşfiyyata çıxmış 11 erməni quldurunu tutaraq, rayon mərkəzinə gətirmişdilər. Rayon prokurorluğu istintaqa başlasa da, Respublika Prokurorluğu işin DQMV hərbi komendantının sərəncamına göndərilməsinə göstəriş – əmr vermişdi. İyulun 14-də həmin erməni quldurlarını Xankəndinə, guya istintaqa aparmaq üçün rus hərbçilərinin müşayiəti ilə Kəlbəcərə 2 vertolyot gəldi. Nədənsə, vertolyotlar nəzərdə tutulmuş meydançaya deyil, şəhər stadionuna endilər. Erməni quldurlarını götürüb qalxarkən vertolyotlardan birinin pərləri, guya, elektrik dirəyinə toxundu və vertolyot müvazinətini itirərək, stadionun yanındakı divarın dibinə düşdü. Bu zaman vertolyotun pərləri burada futbol oynayan, vertolyota baxmağa toplaşmış uşaqları biçib-tökdü. O gün Kəlbəcər 8 azyaşlının məktəblinin qanında boğuldu. Kim idi onlar: ermənilərə güllə atanmı?! Başqa xalqın torpağına göz dikənmi?! Bəs nə idi onların günahsız axan qanına bais olan səbəb? – Onlar türk çocuqları idilər...





## Ağdabanın birinci faciəsi 8 aprel 1992-ci il

Aprelin 8-dən 9-a keçən gecə baş vermiş daha dəhşətli faciə fevralda baş verənlərdən diqqəti yayındırdı. Ermənilər gecəykən hücum edərək, Dədə Şəmşirin yurdunu – Ağdabanı ikinci Xocalıya çevirdilər. Hücumdan xəbərsiz kənd əhalisi başıaçıq-ayaqyalın, qarla örtülü meşələrə, dağlara dağıldılar. Kəndi müdafiə edən kiçik dəstə ermənilər tərəfindən məhv edildiyindən, əhali müdafiəsiz qalmışdı. Bu qanlı faciə zamanı 32 nəfər dinc əhali qoca, qadın, uşaq həlak oldu, iki nəfəri evdə diri-diri yandırdılar. 7 nəfər girov aparıldı. Kənd bütünlüklə, demək olar ki, yandırıldı. Səhər tezdən köməyə gələn yerli batalyonun 6 döyüşçüsü həlak oldu.

Ağdaban faciəsi ermənilərin Kəlbəcərə qarşı başladıqları böyük müharibənin siqnalı idi. Kəndin ermənilərin əlində qalması görünməz fəlakətlərə gətirib çıxarardı, digər kəndlərin işğalını asanlaşdırardı. Murov yolunun ermənilər tərəfindən tutulmasına və beləliklə də 52 min nəfərlik əhalinin tamamilə məhvinə gətirib çıxarardı.

Ağdaban faciəsi, nəhayət, respublika rəhbərliyini də silkələdi. Rəsmi Bakı dərk etdi ki, etibarlı müdafiə təşkil olunmasa, Kəlbəcər ermənilər tərəfindən işğal oluna bilər, bu isə Er-

mənistanla Dağlıq Qarabağın birləşməsi demək idi.

Xocalı faciəsi kimi, Ağdaban faciəsi də o zaman respublikada olduğu kimi dərk olunmadı. Neçə illər keçsə də, hələ o faciə beynəlxalq miqyasda müzakirəyə çıxarılmayıb.

...Kəlbəcərin işğalı, əslində, hələ 1992-ci il aprelin 8-dən 9-na keçən gecə Ağdabanın darmadağın olunmasından başlanmışdı. Ermənilər Ağdaban kəndi ilə qonşu olan Çapar kəndindən gecəikən hücum edərək, Dədə Şəmşir yurdunu 130 təsərrüfatdan ibarət Ağdabanı ikinci Xocalıya çevirdilər. Həm də təkcə Ağdaban kəndini yox, Çayqovuşanı da darmadağın etdilər. Bu qəfil hücumdan xəbərsiz kənd əhalisi başaçıq-ayaqyalın, qarla örtülü meşələrə, dağlara dağıldılar. Kəndi müdafiə edən kiçik dəstə ermənilər tərəfindən məhv edildiyindən, əhali müdafiəsiz qalmışdı. Bu faciə zamanı 32 nəfər dinc kənd əhalisi qoca, qadın, uşaq həlak oldu, əslində isə qəddarcasına qətlə yetirildi, qanlı terrorun qurbanlarına çevrildi. Yeddi nəfər girov tutularaq əsir aparıldı, kənd bütünlüklə odlara qalandı, insanları əli-qolu bağlı halda, diri-diri tonqalların üstünə atdılar. Səhər tezdən kəndin köməyinə gələnlərdən 6 nəfəri də elə yolda, maşında güllə-barana tutuldu.

Ağdaban faciəsi əslində ermənilərin yox, Ermənistanın başladığı böyük müharibənin





siqnalı idi. Kəndin ermənilərin əlində qalması görünməmiş fəlakətlərə gətirib çıxarar, digər kəndlərin işğalını isə asanlaşdırardı. Bu, həm də Murov yolunun ermənilər tərəfindən tutulması və beləliklə, 52 min nəfərdən çox Kəlbəcərlinin məhvi demək idi.

1988-ci il fevral ayının 13-də Qarabağımızın dağlıq hissəsinə vaxtilə qonaq Гисmində gəlmiş erməni daşnaklarının əli ilə Əli ilə Bəxtiyar (iki günahsız yeniyetmə) qətlə yetiriləndən xalqımızın tarixində yeni şəhidlik dövrü başladı. İlk şəhidlərimiz torpaq uğrunda əbədiyyətə qovuşdu. Sonra qədim İrəvanda, Zəngibasar və Göyçəmizdə, Hamamlı və Gümrüdə.. şəhid olduq. Düşmən mühasirə halqasını daraltdıqca şəhidlərimizin sayı da artdı. Dağlıq Qarabağda türksoylu insanlar doğma torpaqlarında didərginə, qaçqın-köçkünə və girova çevrildilər.

Yurdun Kəlbəcər adlı bölgəsi də bu ağrıları ilk yaşayanlardan oldu. 1989-ju il 14 iyul tarixində Kəlbəcər şəhər idman meydançasında guya elektrik dirəyinə dəyib (əslində, dinc, silah-sursatsız Ağdaban qadınlarının tutduqları başdan-ayağa kimi silahlanmış 7 erməni yaraqlılarının Xankəndinə aparılması üçün Arkadi Volsk tərəfindən göndərilən hərbi vertolyotun pilotları ermənilər olduğu üçün onlar bu «qəzanı» bilərəkdən törətmiş, Kəlbəcərlilərdən qisas

almışdılar) yerə düşən vertolyot 8 nəfər azyaşlı və körpə oğlan uşağını biçib-tökdü.

Sonra ayrı-ayrı kəndələrin dinj sakinləri güllə-bara tutuldu, Dikyurd yaylağından azyaşlı Hidayət Cəfərov 500 başdan artıq mal-qara ilə birlikdə Basarkeçərə (Vardenisə) oğurulanıb aparıldı. Kəlbəcərin müsibətli günlərində qan çanağında boğulan kəndlərindən biri, əslində isə birincisi Ağdabanla Çayqovuşan kəndləri idi.

Ağdaban bir dəfə deyil, iki dəfə erməni quldur və birləşmiş erməni-rus muzdluları tərəfindən darmadağın edildi. Beləliklə, 8 aprel 1992-ci il və 26 mart 1993-cü il tarixləri Ağdabanın işğal tarixləri kimi yaddaşlara yazıldı. Kəlbəcərin ilk şəhidliyi məhz bu kənddən başladı.

Ermənilər Ağdabanı təkjə strateji məkan olduğu üçün deyil, əslində, Kəlbəcər ədəbi mühitinin beşiyi kimi də çoxdan hədəfə almışdılar. Çünki bu kəndin yetirdiyi Ağdabanlı Qurban böyük sərkərdə Şah İsmayıl Xətainin silahdaşı olan Miskin Abdal ocağının nəsil davamçısı idi. Bu ocaq mənəviyyatımızın beşiyi kimi erməniləri olduqca ciddi narahat edirdi. Məhz ona görə də hələ 1990-cı il iyul ayının 11-də Ağdərənin «Otaqqaya» adlanan ərazisində Tərtər-Kəlbəcər marşurutu ilə gedən 150-yə yaxın maşından ibarət karvanın qarşısını kəsərək, Dədə Şəmşirin qızı Çimnaz xanımı,





Şahlar Şükürovu (Azərbayjanın Milli Qəhrəmanı), Aslan Xıdırovu, İttifaq miqyaslı İstisu sanatoriiyasında müalicəyə gedən yüzlərlə dinc sakini (əksəriyyəti isə xəstə və qocalardan ibarət) terror nəticəsində qətlə yetirmişdilər.

Bu isə ermənilərin strateji məqsədlərinin həyata keçirilməsi planının ilkin şərtlərindən biri idi. Min təəssüf ki, Ağdaban faciəsi olduğu kimi dərk olunmadı və ona rəsmi olaraq siyasi və hüquqi qiymət verilmədi. Bu da ondan irəli gəlirdi ki, Xocalı soyqırımı digər faciələrdən fərqli olaraq, beynəlxalq miqyasda geniş əks-səda verdi. Miqyası geniş olmayan neçə-neçə belə faciələrimizin üstündən sükutla keçməyimiz isə nəticədə Ermənistanın torpaq iştahasını bir az da genişləndirdi...

Ağdaban kəndində şəhid olan 32 nəfərin adbaad siyahısı isə belədir:

1. Almasov Tağı Sultan oğlu
2. Almasov Şahid Tağı oğlu
3. Kərimova Qəmər İmran qızı
4. Alıyev Camal Haqverdi oğlu
5. Alıyeva Ülviyyə Jamal qızı
6. Məmmədov Musa Qara oğlu
7. Qojayev Qara Qurban oğlu
8. Qurbanov Qulu Şabər oğlu
9. Qocayeva Zeynəb Məhəmməd qızı
10. Qocayev Bakir Qurban oğlu
11. Məmmədova Həyat Yolçu qızı

12. Qabilov Sədrəddin Qədir oğlu
13. Məmmədov Məhəmməd Mamoy oğlu
14. Bağırov Əbdül Məhəmməd oğlu
15. Məmmədov Ziyəddin Əlqəmə oğlu
16. Həsənov Natiq Bəhmən oğlu
17. Bayramov Çingiz Xanlar oğlu
18. Kərimov Əbülfət Sovet oğlu
19. Bağırov Vidadi Yusif oğlu
20. Süleymanov Azad Cəmil oğlu
21. Abbasov İsgəndər Asif oğlu
22. Əliyev Misir Pənah oğlu
23. İbrahimov Həmid İsmayıl oğlu
24. Hümbətova Fatma Qaraja qızı
25. Qasımov Riayyət Bahadur oğlu
26. Məmmədov İsbəndiyar Lətif oğlu
27. Hümbətov Qorxmaz Mustafa oğlu
28. Mirzəyev Mahmud Əli oğlu
29. Mirzəyev Nüsrət Mahmud oğlu
30. Məmmdov Tural Qara oğlu
31. Tağıyev Rafiq Bəhmən oğlu
32. Hüseynov Hidayət Saleh oğlu





## Ağdabanın ikinci faciəsi 26 mart 1993-cü il

Beləliklə, həm Ağdərə, həm də Ermənistanın Basarkeçər rayonu istiqamətindən hücuma məruz qalan, müdafiə olunmayan, şayiələr və təxribatlar nəticəsində vahiməyə düşən əhali qarlı-çovğunlu günlərdə öz dədə-baba yurdlarından ayaqyalın-başıaçıq, bütün əmlakını ataraq, dəniz səviyyəsindən 3400 metr yüksəklikdə olan Murovdağ aşırımından qaçmağa məcbur edilmişdir. Siyasi oyunların, daxili çəkişmələrin, qeyrətsiz və satqın hərbçilərin xəyanətindən 52 min nəfər qısa vaxt ərzində doğma yurdlarından qovuldular. Azərbaycanın ən gözəl, öz təbii ehtiyatlarına görə zəngin bölgəsi təkləndirildi və düşmənə baş əydirildi.

Ağdabanın ikinci dəfə işğalı Kəlbəcərin tamamilə Ermənistan tərəfindən zəbt olunması demək idi. Bundan sonra Kəlbəcər hər tərəfdən mühasirəyə alınaraq, mart ayının 31-dən aprelin 2-dək tamamilə Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal edildi.

İşğal nəticəsində 220 nəfər (mülki vətəndaşlarımız) Kəlbəcərli həlak oldu, 321 nəfər itkin düşdü, yaxud girov aparıldı. Ən çox itki isə Kəlbəcər şəhərindən 64 km uzaqda olan Başlıbel kəndinin taleyinə düşdü: 28 nəfər ermənilər tərəfindən bir gecədə qətlə yetirildi, 18 nəfər girov götürüldü və ya əsir aparıldı, 17

nəfər 4 ay mühasirdə qalandan sonra min bir əziyyətlə gəlib Gəncəyə çıxdılar.

Beləliklə, Kəlbəcər dağıldı, 1993-cü il aprel ayının 2-dən Azərbayjan Respublikasının 56 rayonunun 707 yaşayış məntəqəsi Kəlbəcərlilərin müvəqqəti məskəninə çevrildi.

Kəlbəcərin 128 yaşayış məntəqəsi, o cümlədən, illərlə tikilib-qurulmuş dünya əhəmiyyətli «İstisu» sanatoriyası, 500-dən çox sənaye, tikinti, kolxoz, sovxoz, ticarət, ictimai-iaşə və s. xidmət obyektləri, 13 min yaşayış evi, 324 sosial-mədəni obyekti düşmən əlinə keçərək darmadağın edildi. Rayon əhalisinə məxsus 100 min baş iribuynuzlu, 500 min baş xırdabuynuzlu mal-qara, 5 min baş at, bir milyon quş, 50 min arı ailəsi, 130 minik maşını, 195 min ədəd xalça-kilim, 320 min dəst yorğan-döşək, 59 min ədəd mebel dəsti, 26 min ədəd televizor, soyuducu və s. düşmən tərəfindən qarət olunaraq Ermənistana daşındı.

**Ümumiyyətlə, 1993-cü ilin qiymətləri ilə Kəlbəcərin işğalı ilə bağlı əhaliyə və dövlətə 761 milyon ABŞ dolları dəyərində maddi ziyan dəymişdir.**

Kəlbəcərin işğalı ermənilər üçün sanki hədiyyə idi. Əvvələ, necə ki Kəlbəcər işğal olunmamışdı, Dağlıq Qarabağın gələcək taleyi sual altında idi. Ona görə ki, bir əsrdə bir neçə dəfə olunmuş hücum və təcavüzlərin qarşısını alan Kəlbəcər imkan vermirdi





ki, ermənilər Dağlıq Qarabağı Ermənistana birləşdirib, işğalçılıq planlarını həyata keçirsin və Azərbaycan torpaqları hesabına «Böyük Ermənistan» dövlətini qursunlar. İkincisi, Kəlbəcərin işğalı hərbi üstünlüyün ermənilərin tərəfinə keçməsinə və bununla da Ağdamın, Zəngilanın, Qubadlının, Cəbrayılın, Füzulinin işğalına şərait yaradırdı.

Qoca tarix çox xəyanətlərin, hadisələrin şahididir. Lakin, bizcə, Azərbaycanın 1988-93-cü illərdəki vəziyyəti bəlkə də heç vaxt olmayıb. Doğrudur, illərdən bəri millətimiz qəlbində və ürəyində saxladığı, gerçəkləşəcəyinə tam əmin olduğu azadlıq və müstəqilliyini əldə etmişdir. İndi dünyanın ən diqqətçəkən dövlətlərindən biri olan Azərbaycan Respublikasının üçrəngli bayrağı sivil dövlətlərin bayraqları ilə birlikdə dalğalanır. Azərbaycan idmançıları dünya idmançıları arasında daha möhtəşəm yeri tutur, bayrağımızı bayraqlardan yüksəkliyə qaldırır, Azərbaycan Avropa Şurası kimi bəşəri bir qurumun tam, həqiqi üzvüdür...

Beləliklə, Kəlbəcər dağıldı, 1993-cü il aprel ayının 2-dən Azərbaycan Respblikasının 56 rayonunun 707 yaşayış məntəqəsi Kəlbəcərlilərin müvəqqəti məskəninə çevrildi.








## Путь к Агдабанской трагедии

11 июля 1989 года женщины Агдабана задержали вышедших на разведку 11 армянских разбойников, доставив их в районный центр. Районная прокуратура, несмотря на начало следствия, вынесла постановление об отправке дела в военную комендатуру НКАО. 14 июля в Кельбаджаре приземлились 2 вертолета в сопровождении русских военных якобы для доставки армян в Ханкенди в целях проведения следственных мероприятий. Но вопреки ожиданиям, вертолеты приземлились не на площадке для вертолетов, а на городском стадионе. При взлете один из вертолетов с армянскими преступниками, задев якобы электрические столбы и потеряв управление, упал у стен стадиона. В результате винты вертолета, задев игравших в футбол и смотрящих на вертолеты детей, стали причиной смерти 8 школьников. Кто они были: стреляли ли они в армян?! Люди, устремляющие свои взоры чужим землям?! А какова была причина убийства ни в чем невинных людей? Они были тюркскими детьми…

## Первая трагедия Агдабана
## 08 апреля 1992 года

Ужасная трагедия в ночь с 8 на 9 апреля на миг отвлекла внимание от всего происходящего. Армяне, напавшие на мирных жителей в ночное время, превратили родину Деде Шемшира – Агдабан во второй Ходжалы. Сельское население, оказавшееся перед фактом внезапного нападения, рассеялось по горам и покрытым снегом лесам. Небольшой отряд самообороны был уничтожен армянами, поэтому население оказалось без соответствующей защиты. В результате кровавой резни погибли 32 ни в чем невиновных людей, в том числе старики, женщины, дети, два из них были заживо сожжены в своем дом, 7 человек были взяты в плен. Село в целом было дотла сожжено. 6 бойцов подоспевшего к помощи местного батальоны погибли от вражеских пуль.

Агдабанская трагедия стала сигналом широкомасштабной войны армян против Кельбаджара. Нахождение села в руках армян вызвало невиданные по сей поры последствия, намного способствуя захвату близлежащих сел, а также захвату армянами Муровской дороги и полному уничтожению 52-тысячного населения.

Агдабанская трагедия наконец-то ударила по чувствам и ответственности руководства республики. Официальный Баку осознал, что без надежной защиты Кельбаджар может оккупироваться армянами, что в свою очередь приведет к присоединению всего Нагорного Карабаха к Армении.





Агдабанская трагедия, как и Ходжалинская, в то время не была юридически оценена в Республике. Несмотря не стечение долгих лет, данная трагедия не стала предметом обсуждений на международном уровне.

... Оккупация Кельбаджара началась еще в ночь с 8 на 9 апреля с грабежом и опустошением Агдабана. Армяне, напав ночью на село Агдабан в направлении села Чапар, превратили родину Деде Шемшира во второй Ходжалы, разграбив этим населенный пункт из 130 хозяйств. Кроме того, армяне подвергли опустошению и Чавговушанлы. Неосведомленное об этом сельское население отошло в горы и леса, не взяв при этом ничего из бытовых принадлежностей. Небольшой отряд самообороны был уничтожен армянами, поэтому население оказалось без соответствующей защиты. В результате трагедии 32 ни в чем невиновных человек стали жертвами кровавого террора, в том числе старики, женщины, дети. Семь человек были взяты в плен, село было целиком сожжено, люди со связанными руками были брошены в огонь. 6 человек из отряда самообороны, подоспевшие к помощи утром, были расстреляны по дороге, на машинах.

Агдабанская трагедия стала по своей сути сигналом жестокой войны, спровоцированной Арменией. Нахождение села в руках армян вызвало невиданные до сей поры последствия, намного способствуя захвату близлежащих сел, а также захвату армянами Муровской дороги и полному уничтожению 52-тысячного населения Кельбаджара.

С убийством 13 февраля 1988 года двух невинных подростков Али и Бахтияра руками армянских дашнаков, когда-то посетившими нагорную часть Карабаха в качестве гостя, в истории нашего народа начался новый период шехидства. Именно в этот период доблестные сыновья Азербайджанского народа пали храброй смертью за часть родины. Затем последовало убийство сотни азербайджанцев в Иреване, Зенгибасаре и Гёйче, Хамалы и Гюмру... На фоне ужесточения действий враг, окружившего наши села, число наших шехидов увеличивалось с каждым днем. Тюркоязычное население Нагорного Карабаха было изгнано из родных мест, превратившись в беженцев и вынужденных переселенцев.

Кельбаджар стал первой жертвой армянской оккупационной машины. 14 июля 1989 года вертолет, упавший на Кельбаджарской городской спортивной площадке, якобы задев электрические столбы (в подлинности, пилоты военного вертолета, отправленные Аркадием Вольским для





доставки в Ханкеди 7 до зубов вооруженных армян, задержанных мирными, невооруженными женщинами Агдабана, умышленно спровоцировали «аварию» в силу принадлежности их к армянской национальности) покончил жизнью 8 детей-школьников.

Затем шпальному огню подверглись жители отдельных селений, несовершеннолетний Гидаят Джафаров вместе с 500 голами скота был взят в плен на Дикьюрдском пастбище и доставлен в Басаркечар (Варденис). В трагичные дни Кельбаджара одним, точнее первыми селами-жертвами армянских зверств стали села Агдабан и Чайвогушан.

Агдабан не раз, а дважды подвергался опустошению со стороны армянских разбойников и армяно-русских военных формирований. Таким образом, 08 апреля 1992 года и 26 марта 1993 года – кровавые даты оккупации и грабежа Агдабана. Первые шехиды Кельбаджара увековечились честью отважных именно в ходе трагичных событий в Агдабане.

Армяне устремили свои хищные взоры в Агдабан не только в силу стратегического назначения территории, но и с учетом того, что Агдабан являлся колыбелью Кельбаджарской вечной среды. Агдабанлинец Гурбан, являющийся отважным сыном своей отчизны, был представителем Родословной Мискина Абдала – соратника великого полководца Шаха Исмаила Хатаи.

Этот очаг – колыбель нашей духовной культуры – вызывал серьезные опасения у армян. Именно поэтому еще 11 июля 1990 года террористически настроенные армяне, остановив на территории «Отаггая» Агдеринского района караван из 150 машин, следовавших по маршруту Тертер-Кельбаджар, убили дочь Деде Шемшира Чимназ ханум, Шахлара Шукюрова (Национальный Герой Азербайджана), Аслана Хыдырова и сотни мирных жителей, следовавших в Кельбаджар для прохождения курса лечения в санатории Истису Союзного масштаба (в преобладающей части больные и старики).

Данные действия армян были первичными условиями плана осуществления стратегических планов армян. К сожалению, Агдабанская трагедия не получила официально достойной политической и юридической оценки, что было связано широким резонансом Ходжалинской трагедии на международной арене в сравнении с другими трагическими событиями, спровоцированными на территории Азербайджана. Армения дала толчок к осуществлению своих территориальных амбиций…

Поименный список 32 шехидов села Агдабан:

1. Алмасов Таги Султан оглу
2. Алмасов Шахид Таги оглу
3. Керимова Гемер Имран кызы
4. Алиев Джамал Хагверди оглу
5. Алиева Ульвия Джамал кызы





6. Маммедов Муса Кара оглу
7. Годжаев Гара Курбан оглу
8. Гурбанов Гулу Шабер оглу
9. Годжаева Зейнаб Мухаммед кызы
10. Годжаев Бакир Курбан оглу
11. Мамедова Хаят Йолчу кызы
12. Габилов Седреддин Кадир оглу
13. Маммедов Мухаммед Мамой оглу
14. Багиров Абдул Мухаммед оглу
15. Мамедов Зияддин Алгаме оглу
16. Гасанов Натик Бахман оглу
17. Байрамов Чингиз Ханлар оглу
18. Керимов Абульфат Совет оглу
19. Багиров Видади Юсиф оглу
20. Сулейманов Азад Джамиль оглу
21. Аббасов Искендер Асиф оглу
22. Алиев Мисир Панах оглу
23. Ибрагимов Хамид Исмаил оглу
24. Гумбатова Фатима Гараджа кызы
25. Гасымов Пиаят Бахадур оглу
